www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6-8 dekabr 2025-ci il Şənbə № 222 (8832) Qiyməti 60 qəpik

**Xəbər**

## "Halal" adı ilə donuz əti konservi satılır - Əhaliyə xəbərdarlıq

yazısı səh.14-də

**Gündəm**

### Sərhədlər bu tarixdə açılır? - gözlənti



**Politoloq:** "Nə baş verəcəksə, Bakı ilə koordinasiyalı şəkildə baş verəcək..."

yazısı səh.6-da

# İSRAİL ZƏNGƏZURA YERLƏŞİR - PAŞİNYANDAN İRANA "SOYUQ DUŞ"

Yəhudi dövlətinin "Tramp marşrutu"nda iki strateji marağı var və İrəvanla təmaslar qurur; Tehranın Ermənistana təzyiqləri artacaq?




yazısı səh.3-də

### Paşinyandan 30 illik Qarabağ danışıqları haqda yeni etiraf

yazısı səh.4-də

### Paytaxtda dəhşət: yanğın daha 4 can aldı

yazısı səh.2-də

### Pakistan Ermənistanda səfirlik açır - Bakıdan reaksiya

yazısı səh.4-də

### Putin müharibəni, Zelenski müdafiəni seçir

yazısı səh.7-də

### Suya təşnə olan İran Azərbaycandan su alacaq?

yazısı səh.14-də

### Trampdan sonra ABŞ-ı 8 il o idarə edə bilər

yazısı səh.7-də

### Gürcüstanda əcnəbi tələbələrə "qırmızı işıq" - Azərbaycana problem?

yazısı səh.13-də

### "Ruben Vardanyan işi": hər ifadə bir cinayət dosyesi

yazısı səh.9-da

### "Kişi evdə uşaq saxlamaz" dövrü bitir - 14 günlük məzuniyyət nəyi dəyişəcək?

yazısı səh.11-də

### Qabiliyyət imtahanlarında dəyişiklik edildi

yazısı səh.11-də

## Mehdiyevin "Dövlət Şurası" - 50-dən 4-ü, bəs digərləri...

Sabiq millət vəkili yeni həbslərin anonsunu verdi; sırada kimlərdir?

yazısı səh.13-də



*Azər Əmiraslanov:*

### "Bəzi avantüristlər ciddi nəticə çıxartmalıdırlar!"

yazısı səh.5-də



### II Qaregin gedir - İqtidarın son həmləsi

yazısı səh.9-da



Sayman Aruz

### Arazın o tayından Aruza etiraz - Tənqidi naməyə cavab

yazısı səh.12-də

# Bu şəxslər öləndən sonra ailələrinə pul veriləcək



Vəfat edən dövlət qulluqçularının vərəsələrinə müavinət ödəniləcək. Musavat.com xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Mədəniyyət komitələrinin bu gün birgə keçirilən iclasında müzakirəyə çıxarılan "Dövlət qulluğu haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, dövlət qulluqçusu vəfat etdikdə, habelə məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə dövlət qulluğuna xitam verilə bilər. Bu əsasla dövlət qulluğuna xitam verildikdə dövlət qulluqçusunun vərəsələrinə orta aylıq dövlət məvacibinin dörd misli miqdarında müavinət ödəniləcək.



## Hikmət Hacıyev NATO rəsmisi ilə görüşdü

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev NATO-nun Cənubi Qafqazdakı Ofisinin rəhbəri Aleksandr Vinnikovla görüşüb. Musavat.com xəbər verir ki, bu barədə İsveçin Azərbaycandakı səfirliyi məlumat yayıb.

Səfər zamanı Aleksandr Vinnikov Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevlə səmərəli müzakirələr aparıb.

Məlumatda bildirilib ki, bu həftə NATO-nun Cənubi Qafqazdakı Ofisinin (Tbilisidə) rəhbəri Aleksandr Vinnikov NATO-Azərbaycan münasibətlərinin daha da inkişaf etdirilməsi, eləcə də qarşılıqlı maraq doğuran regional təhlükəsizlik məsələləri ilə bağlı müzakirələri davam etdirmək üçün Bakıya gəlib.

Aleksandr Vinnikov NATO-nun hərbi təhsilin təkmilləşdirilməsi proqramına və onun müdafiə və təhlükəsizlik islahatlarına töhfəsinə həsr olunmuş beynəlxalq konfransda NATO-Azərbaycan tərəfdaşlığı haqqında əsas məruzə ilə çıxış edib.

Nümayəndə heyəti həmçinin yerli analitik mərkəzlər, NATO səfirləri və Ukraynanın Azərbaycandakı səfiri ilə faydalı görüşlər keçirib.

Səfər 2025-2026-cı illər üçün Azərbaycanda NATO-nun əlaqə mərkəzi kimi fəaliyyət göstərən Slovakiya və İsveçin Bakıdakı səfirliklərinin dəstəyi ilə təşkil olunub.




## Bakıda növbəti yanğın: 4 nəfərin ölümünün təfərrüatı

Qaradağ rayonu, Lökbatan qəsəbəsi, "Qobu Park-1" yaşayış massivində yerləşən 9 mərtəbəli yaşayış binasında dörd nəfərin ölümü ilə nəticələnən yanğınla bağlı bəzi təfərrüatlar məlum olub. Teleqraf-ın əldə etdiyi məlumata görə, yanğının qazsızmadan baş verdiyi ehtimal edilir.

Məlumata görə, yanğın 7-ci mərtəbədə başlayıb, ölən şəxslər isə binanın 9-cu mərtəbəsində yaşayır. 3 nəfər bir ailənin üzvüdür, digər ölən şəxs isə qonşudur.

Qeyd edək ki, yanğın zamanı ümumi sahəsi 45 kv.m olan ikiotaqlı mənzilin mətbəxinin və dəhlizinin yanar konstruksiyaları 13 kv.m sahədə yanıb, hadisə nəticəsində əmələ gələn tüstüdən 4 nəfər (onlardan 2-si azyaşlıdır) boğularaq ölüb.

Yanğınla əlaqədar Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin əməkdaşları tərəfindən aidiyyəti dövlət qurumları, o cümlədən Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birgə hadisə yeri müayinə olunur və digər zəruri prosessual hərəkətlər icra edilir.

Hadisə yerinə 12 təcili tibbi yardım briqadası cəlb olunub, 4 nəfər (qadın) tüstüdən zəhərlənmə ilkin diaqnozu ilə Kliniki Tibbi Mərkəzə hospitalizasiya olunub. Onlardan 3-nün vəziyyəti orta ağır olaraq qiymətləndirilir, bir nəfərə isə zəruri tibbi yardım göstərilib və ambulator müalicə evə buraxılması nəzərdə tutulub.

"Yanğın mətbəxdə olan aspiratordan baş verib".

Bu sözləri Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Lökbatanda 4 nəfərin ölümü ilə nəticələnən yaşayış binasında baş verən yanğın yerində danışarkən deyib. "Hadisə yerinə həkim briqadaları gəlib, hər kəs öz işini lazımi qaydada edib. Bundan sonra nə lazımdırsa, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi edəcək. Qaradağ rayonunun rəhbərliyi və hüquq-mühafizə orqanları burdadır. Bütün məsələlər diqqətdə saxlanacaq və addımlar atılacaq. Əlimizdən gələni edəcəyik. Çox təəssüf, həm körpə, həm də yaşlı insanlar həyatını itiriblər.



## Oljas Süleymenov Nobel Sülh Mükafatına namizəd göstərilib

Görkəmli qazax şairi və ictimai xadim Oljas Süleymenov Nobel Sülh Mükafatına namizəd göstərilib. APA "KazTaq"a istinadən xəbər verir ki, bu barədə "Baytaq" Yaşıllar Partiyasının mətbuat xidməti məlumat yayıb.

Qeyd edilib ki, "Nevada-Semey" antinüvə hərəkatının banisi olan Süleymenov təkcə Qazaxıstanda deyil, bütün dünyada sülhün əldə olunması naminə fədakarlıqla çalışdığına görə bu təşəbbüs irəli sürülüb.

"Oljas Süleymenovun tarixi rolu, xüsusən də onun Nevada-Semey hərəkatı çərçivəsindəki fəaliyyəti Semipalatinsk nüvə poliqonunun bağlanmasında həlledici amil olub. Bundan əlavə, onun təşəbbüsü və Qazaxıstanın beynəlxalq arenadakı fəal işi nəticəsində ABŞ-ın Nevada ştatı daxil olmaqla dünyanın bir neçə ölkəsində daha dörd böyük nüvə poliqonunun bağlanmasına nail olunub. Bu, qlobal təhlükəsizliyə böyük töhfədir", - məlumatda vurğulanıb.

## Qadın boksçu və tələbəsi saxlanılıb

Abşeron rayonu ərazisində baş vermiş quldurluq cinayətinə görə boksçu kimi tanınan Tulin Ələkbərova və onun tələbəsi saxlanılıb. Onlar dekabrın 4-də 2004-cü il təvəllüdlü şəxsə kəsici alətlə xəsarət yetirib, quldurluq yolu ilə onun 110 manat pulunu ələ keçirməkdə şübhəli bilinirlər.

Polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə 21 yaşlı Tulin Ələkbərova və 19 yaşlı Abbas Rəhimli tutulublar. Faktla bağlı araşdırmalar davam etdirilir.

## Xankəndi - Ağdam yolu niyə bağlıdır? - Açıqlama

Xankəndi - Ağdam yoluna hər iki istiqamətində beton pilitələr qoyulub. Yolun bəzi hallarda müvəqqəti açıldığı, sonradan yenə bağlanıldığı qeyd olunur. Belə olan halda Ağdamdan Xankəndi və əksinə hərəkət edən şəxslər yararsız yoldan istifadə etmək məcburiyyətində qalırlar. Məsələ ilə bağlı Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) Teleqraf-ın sorğusuna cavab olaraq bildirilib ki, Xankəndi-Ağdam asfalt yolu hələ sürücülərin istifadəsinə verilə bilməz:

Qurumun mətbuat xidmətinin rəhbəri Anar Nəcəflinin sözlərinə görə, yolda işlər hələ davam edir, nişanlar quraşdırılmayıb, yol xətləri çəkilməyib. Bu işlər icra olunmamış yol açıla bilməz:

"İnsanlar daha qısa yolla mənzil başına çatmaq istəyirlər, amma orada təhlükəsizlik tədbirləri görülməlidir. Əyri xəttin dəmir tilləri quraşdırılması, yol kənarında, yol ayrıcında, yol nişanlarının quraşdırılması, üfüqi nişanlama xətlərinin çəkilməsi yəni, bu proses tam yekunlaşandan sonra sürücülərin istifadəsinə verilməsi mümkündür. Təhlükəsizlik tədbirləri görülmədən orada necə gəldi yolu açıb istifadəyə vermək düzgün və mümkün deyil".

O əlavə edib ki, ərazidə işlər yekunlaşmadığı üçün texnikalar da fəaliyyət göstərir və yol açıq olsa belə, texnikaların hərəkəti təhlükəsizlik baxımından düzgün deyil.

## FİFA futbola yeni qayda gətirir

**FIFA futbolda simulyasiyaların qarşısını almaq və oyunun tempini qorumaq üçün yeni qayda tətbiq etməyə hazırlaşır.**

"Unikal" xəbər verir ki, bu məqsədlə oyun zamanı tibbi müdaxiləyə ehtiyac duyan futbolçu meydana daxil olmaq üçün 2 dəqiqə gözləməli olacaq.

Yenilik vaxt aparmaq üçün özünü yalandan zədəli kimi göstərən futbolçuları fikirlərindən daşındırmaq məqsədi daşıyır. Amma yeni qayda qapıçıya müdaxilə edildiyi və baş hakim kobudluğa yol verən futbolçuya vərəqə göstərdiyi vaxt tətbiq olunmayacaq.

Qayda bu il Qətərdə keçiriləcək Ərəb Kubokunda ilk dəfə sınaqdan keçiriləcək.

FİFA Hakimlər Komitəsinin prezidenti Pyerluici Kollina bildirib ki, yeni qayda simulyasiyaların sayını azaltmağı, futbolu daha dinamik, ədalətli və əyləncəli etməyi nəzərdə tutur.



## Mədəni sərvətləri məhv edənlər həbs ediləcək

Mədəni sərvətləri ehtiyatsızlıqdan məhv edənlər 2 ilədək həbs ediləcək. APA xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Mədəniyyət komitələrinin birgə keçirilən iclasında müzakirəyə çıxarılan Cinayət Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, dövlət tərəfindən qorunan mədəni sərvətlərin qanunvericiliklə müəyyən edilmiş qorunması, tədqiqi və istifadəsi qaydalarının pozulması ehtiyatsızlıqdan onların məhv edilməsinə səbəb olduqda cinayət nəticəsində vurulmuş ziyanın iki mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.



## Yevlaxda da yanğın oldu: bir nəfər öldü

Yevlaxda yanğın hadisəsi baş verib. APA-nın yerli müxbiri xəbər verir ki, şəhər ərazisində evdə baş vermiş yanğın hadisəsi nəticəsində bir nəfər ölüb, iki nəfər yanıq xəsarətləri alıb. Xəsarət alanlar Yevlax rayon mərkəzi xəstəxanasına (RMX) çatdırılıb.

Yevlax RMX-nın İctimaiyyətlə əlaqələr bölməsindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, dekabrın 5-də saat 01:20 radələrində 2 nəfər (1 kişi, 1 qadın) xəstəxananın Təcili tibbi yardım şöbəsinə hospitalizasiya olunub. Yanıq xəsarətləri alan pasiyentlərə tibbi yardım göstərilib. Onlardan 1965-ci təvəllüdlü şəxsin (qadın) vəziyyəti qənaətbəxş qiymətləndirilib və ambulator müalicə üçün evə buraxılıb.

1967-ci il təvəllüdlü digər şəxs isə (kişi) daha ixtisaslı tibbi yardım almaq üçün Nərimanov Tibb Mərkəzinin nəzdində olan Yanıq Mərkəzinə təxliyə olunub. Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 222 (8832) 6 dekabr 2025

**Gürcüstanda xeyli sayda azərbaycanlı yaşayır və onlar həm öz ana dillərini, həm də dövlət dili olan gürcü dilini öyrənməlidir.**


Azər Allahverənov

# Deputatdan çağırış: "Gürcü dilinin təbliği Azərbaycan dilinə təzyiqlə nəticələnməməlidir"

Bunu "Report"un Gürcüstan bürosuna açıqlamasında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev deyib. Nazir qeyd edib ki, Gürcüstanda yaşayan azərbaycanlıların bu və digər dildə ali təhsil almaq imkanları məhdud olmamalıdır.

Milli Məclisin deputatı Azər Allahverənov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Gürcüstanda yaşayan azərbaycanlıların müəyyən bir qismi gürcü dilini çox yaxşı bilir. O qeyd edib ki, xüsusilə, bu, gəncə nəslə aiddir: "Müstəqillik illərində gürcü dilinin populyarlaşdırılması, eyni zamanda dövlət qurumlarında iş tapmaq üçün gürcü dilini bilmək tələbi bu məsələdə öz sözünü deyib. Gürcüstanda dəfələrlə müşahidə etmişəm ki, 20-25 il bundan əvvəl soydaşlarımız arasında gürcü dilində danışan insanların sayı çox az idi. Hətta xatırlayıram ki, o dövrdə məhkəmə orqanlarında, parlamentdə gürcü dilində danışan bir neçə nəfər var idi. Sonrakı illərdə dövlətin müəyyən etdiyi bir sıra tələblər, eyni zamanda tətbiq etdiyi müxtəlif proqramlar vasitəsilə bu və ya digər formada gürcü dilində danışmaq istəyən insanlar üçün müəyyən şəraitin yaradılması istiqamətində işlər həyata keçirildi. Bu gün artıq gürcü dilində danışan azərbaycanlıların sayı kifayət qədər çoxdur. Kvemo-Kartlidə və digər əyalətlərdə kompakt yaşayan azərbaycanlılarda gürcü dilinə meyl o qədər də güclü deyil. Gürcü dilini öyrənmək istəyi daha çox zərurətdən irəli gəlir. Kvemo-Kartlidə fəaliyyət göstərən məktəblərin çoxunda dərslər rus dilində tədris olunur, ancaq Azərbaycan dilində tədris edən məktəblər də var".

Deputatın sözlərinə görə, Gürcüstanda dilə münasibət müstəqillikdən öncəki və müstəqillikdən sonrakı dövrlərdə fərqli olub: "Məsələn, 90-cı illərin ortalarında millətçi çağırışlar var idi. Bu, xüsusilə digər millətlərdən olan insanları mərkəzlərdən uzaq salırdı. Gürcü dili üzərindən vətənpərvərlik dalğasını formalaşdırmaq istəyən müəyyən siyasi dairələr əyalətləri özlərindən uzaq salırdılar və bu, seçki, o cümlədən digər proseslərdə özünü göstərirdi. Artıq bu kimi məsələlərə 21-ci əsr mövqeyindən baxmaq lazımdır. Tamamilə yeni prinsiplər, yanaşmalar mövcuddur. Dövlət dilinin üstünlüklərini daha qabarıq şəkildə təbliğ etmək lazımdır. Dil faktoru insanları birləşdirən faktora çevrilməlidir".

❑ Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"

# Putin Qərbin qarşısına bu ölkəni çıxarır - Avropa əndişədə

**Hazırda dünyanın diqqəti Hindistandadır. Rusiya prezidenti Vladimir Putin son illərdə ən böyük səs-küyə səbəb olan bir səfərini reallaşdırdı. Delhidəki Heydərabad sarayında Kremlin sahibi ilə baş nazir Narendra Modi arasında baş tutan görüş Avropa ölkələrini narahat etməyə bilməz. Çünki kollektiv Qərb ağır sanksiyalarla, eyni zamanda, Rusiyanı Ukrayna savaşına salmaqla onu zəifləducəyini proqnozlaşdırmışdı.**




Amma indi nə baş verir? Şimal qonşumuz üçün yeni bir "nəfəslik açılır". Son illərdə əhalisinin artımına görə Çini də ötüb dünya liderinə çevrilən Hindistan iqtisadi göstəricilərinə, silah istehsalına görə də üst səviyyələrdədir. Belə bir ölkə ilə Rusiyanın əməkdaşlığını daha da sıxlaşdırması, şübhəsiz ki, Ukrayna cəbhəsində Putinin əlinə oynayacaq. Bunu isə Qərb dünyası hesablamamış deyil.

AMİP liderinin köməkçisi, politoloq Əli Orucov "Yeni Müsavat"a açıqlamasında Rusiyanın Hindistandan qazanacaqları dividendlərə toxunur: "Putinin Hindistana gerçəkləşdirilən 2 günlük rəsmi səfəri diqqətlə izlənilir. Xüsusən də Qərb bu səfər və əldə edilən razılaşmalardan narahatdır. Prezident Putinin Hindistan baş naziri tərəfindən yüksək səviyyədə qarşılanması, çox nadir hallarda edilən diplomatik jest təsadüfi sayılmamalıdır. Hələ sovet dönəmində Moskva ilə Delhi arasında geniş əməkdaşlıq var idi və Hindistan keçmiş SSRİ-nin etibarlı tərəfdaşı hesab olunurdu. Modi qonağa qarşı yüksək diqqəti Rusiya ilə əməkdaşlığa böyük önəm verdiyinin göstəricisidir. Hindistan bloklara qoşulmayan ölkələrdən olsa da son dövrlər müdafiə qüdrətini artırmağa və beynəlxalq müstəvidə fəal siyasi oyunçulardan biri olmağa çalışır. Əhalisinin sayına görə dünyada liderlik edən bu ölkənin son dövrlər iqtisadiyyatı da genişlənməkdədir".

Ekspert bildirir ki, Hindistan BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmağa iddialıdır və Moskva ona dəstək göstərir: "Ukrayna-Rusiya müharibəsinin şiddətləndiyi və müharibə ilə bağlı danışıqların intensivləşdiyi, Moskva-Vaşinqton arasında diplomatik fəallığın artığı dönəmdə Putinlə Modi arasında aparılan danışıqlar, razılaşmalar daha fundamental hədəflərə yönəlməsindən xəbər verir, dünyanın ABŞ və Qərb hegemonluğundan çıxarılması çoxqütblü dünya nizamının qurulması, qlobal Şərq ideyasını qlobal Qərbə qarşı qoymaq üçün güclərin birləşdirilməsi. Hər iki liderin verdikləri bəyanatlardan aydın olur ki, tərəflər müdafiə sənayesinin təkmilləşdirilməsinə, yeni texnoloji tətbiqlər, həmçinin nüvə enerjisi sahəsində daha genişçaplı əməkdaşlıq edəcəklər, beynəlxalq terrorizmə qarşı birgə mübarizə aparacaqlar, BMT-nin rolunun və nüfuzunun bərpa edilməsinə səy göstərəcəklər. Bütün bunlar isə Qərb üçün ciddi siqnallardır. Putin Hindistanın simasında özünə tərəfdaş tapması onun mövqeyini gücləndirir ki, bu da indiki vəziyyətdə danışıqlar masasında özgüvən hissləri yaradır. Onu da vurğulayaq ki, Qərb dünyasında parçalanmalar və ABŞ-ın ancaq birtərəfli qaydada öz maraqlarını önə çəkməsi fonunda Putinin atdığı addımlar və fəallaşması qorxulu tendensiyalara yol açır. Kremlin iddiaları və ambissiyaları daha da böyüyür və təhdidləri artırır. Doğrudur, Hindistanla Çin və Pakistan kimi digər nəhənglər rəqabətdədirlər və bu, Hindistanın geniş əl-qol açmasını da, Kremlin manevr imkanlarını da məhdudlaşdırır. Hazırda Rusiyanın indiyədək müharibə apara bilməsi məhz Çin faktoruna bağlıdır desək yanılmarıq. Lakin bununla belə Putin Hindistan səfərində qazanacağı dividentləri də xəfifə alınmamalıdır. Modinin açıqlamasından məlum olur ki, liderlər Ukrayna məsələsində mütəmadi məsləhətləşmələr aparırlar".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# Zaxarova yenə Azərbaycanın "bostanına" daş atdı - "Bakının o vədi..."




**ATƏT-in builki sədri, Finlandiyanın xarici işlər naziri Elina Valtonen Minsk qrupu ilə bağlı diqqətçəkən açıqlama verib. O, qurumun bağlanması qərarını Azərbaycan-Ermənistan sülh prosesinə həyati əhəmiyyətli dəstək adlandırıb. Diplomat bu haqda dünən ATƏT Xarici İşlər Nazirləri Şurasının 32-ci iclasındakı çıxışı zamanı deyib.**

Şəksiz, təşkilat sədrinin bu bəyanatı erməni revanşistlərə ağır və tərs bir şillədir. Hansılar ki, son anadək üzdəniraq Minsk qrupu hesabına, xüsusən də keçmiş həmsədr Rusiyanın köməyi ilə köhnə münaqişənin beynəlxalq gündəmə qaytarılacağını xəyal edirdilər. Ümidləri suya düşdü. Heç Moskva da MQ-yə "ikinci həyat" verə bilmədi...

Yeri gəlmişkən, ATƏT sədri ilə eyni gündə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Paşinyanın Minsk qrupu həmsədrlərinin materiallarını və liderlərin yazışmalarını onların razılıq olmadan ictimailəşdirməsinə etiraz edib. Bildirib ki, "bu paylaşımlar İrəvanın irəli sürməyə çalışdığı narrativi sarsıtmaqla yanaşı, Rusiyanın 30 ildir münaqişənin həlli üçün ardıcıl səylər göstərdiyini təsdiqləyir".

Həmin "ardıcıl səylərin" nədən ibarət olduğunu isə kim bilməsə də Azərbaycan xalqı yaxşı bilir. Onu da bilirik ki, konfliktin on illərlə həll olunmamış qalmasına görə əsas məsuliyyət məhz Moskvanın üzərindədir. Çünki Kreml daima münaqişənin ədalətli çözümünə yox, onu idarə eləməklə Azərbaycan və Ermənistanı öz orbitində saxlamağa çalışıb.

Təsadüfi deyil ki, Rusiya Zaxarovanın dilindən növbəti dəfə Paşinyanı Qarabağı Azərbaycanın tərkib hissəsi elan elədiyi üçün qınayıb. Guya erməni baş nazir məsələdə tələsib. Çünki iddiasına görə, guya 10 noyabr (2020) kapitulyasiya sənədi imzalanarkən "üç lider arasında Dağlıq Qarabağın statusunu sonraya saxlamaq barədə qeyri-formal anlaşma olub".

Lap tutaq, belə şey olub. Axı onu elə Moskva və İrəvan pozub. Necə?

Sadalayaq: 10 noyabr sənədinin bəndlərini sabotaj eləməklə, Rusiya "sülhməramlı" kontingentin pozucu əməlləri ilə, o sırada Azərbaycan dövlətinə qarşı xunta rejimini daha da silahlandırmaqla, separatçılarla "çaşka-lojka" olub qanunsuz birləşmələrin daha da azğınlaşmasına şərait yaratmaqla, "Laçın dəhlizindən" humanitar deyil, hərbi məqsədlər üçün istifadə eləməklə. Qarabağda qondarma "rus icması" yaratmağa başlamaqla.

Hələ biz Xocalıda Azərbaycan xalqına, onun tarixi və mədəni irsinə dəxli olmayan heykəllərin Bakının izni olmadan qoyulmasını demirik. Biz həmçinin Rusiya Müdafiə Nazirliyinin bülletenlərində qədim yer adlarımızın uydurma erməni adları ilə göstərməsini, rus hərbi kontingentin Xocalıdakı qərargahı önündə Rusiya, Ermənistan bayraqları və xuntaçıların əski parçasının yan-yana asıldığını da unutmamışıq (şəklə diqqət!). Torpağın qanuni və tarixi sahibinin üçrəngli bayrağı isə orada nədənsə yox idi.

Nəticə bəlli: Bakı 2023-cü ilin sentyabrında bir günlük antiterror əməliyyatı keçirməli oldu. Ondan sonra nə status, nə "centlmen anlaşması"? Məgər Rusiya və Ermənistan liderləri özlərini "centlmen" kimi apardılar? Özü yıxılan ağlamaz. Artıq sülh müqaviləsi paraflanıb, status isə çoxdan cəhənnəmlik olub - Kremlin iki xalqı yenidən toqquşdurmaq xülyası ilə birgə...

❑ Zahid SƏFƏROĞLU

YENİ MÜSAVAT
N 222 (8832) 6 dekabr 2025

# Pakistan Ermənistanda səfirlik açır - Bakıdan reaksiya

## Sülh müqaviləsinə qədər..



**“Ermənistan və Pakistanın diplomatik nümayəndələri İrəvanda Pakistan səfirliyinin açılması üzərində fəal şəkildə işləyirlər”. Bu barədə erməni mediası xəbər yayıb.**

Diplomatik mənbənin bildirdiyinə görə, səfirliyin gələn il açılması planlaşdırılır. Ermənistan Xarici İşlər Nazirliyi məlumatı təkzib etməyib.

“Ermənistan və Pakistan arasında diplomatik münasibətlərin qurulması ilə bağlı birgə kommunike imzalamaqla, iki ölkənin hökumətləri 1961-ci il ”Diplomatik münasibətlər haqqında" Vyana konvensiyasına və ümumi qəbul edilmiş beynəlxalq təcrübəyə uyğun olaraq qarşılıqlılıq əsasında diplomatik münasibətlərin qurulması məqsədilə nümayəndə mübadiləsi aparmaq və bir-birinə lazımi yardım göstərmək barədə razılığa gəlib. Bu kontekstdə ictimaiyyət gələcək inkişaflar barədə lazımi qaydada məlumatlandırılacaq", - deyə XİN-in cavabında bildirilir.

Xatırladaq ki, Azərbaycanın bir neçə mühüm strateji müttəfiqindən olan qardaş Pakistan və Ermənistan arasında diplomatik münasibətlər 31 avqust 2025-ci ildə qurulub. Həmin gün Çində iki ölkə arasında bununla bağlı birgə kommunike imzalanıb.

Bəs səfirlik Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalananadək açıla bilərmi? Rəsmi Bakının gözləntisi nədir?

Onu da qeyd edək ki, qardaş Türkiyə öz prinsipial mövqeyini çoxdan bəyan edib: öncə Ermənistan Azərbaycanla anlaşmalıdır, sonra siyasi-diplomatik münasibətlər qurula bilər.

Siyasi şərhçi Aydın Quliyev “Yeni Müsavat”a bildirdi ki, Ermənistan-Pakistan diplomatik münasibətləri bir neçə ay öncə qurulub: “2025-ci ilin iyun ayında iki ölkənin rəhbərliyi səviyyəsində Pekində diplomatik münasibətlərin qurulması üçün rəsmi sənəd imzalanıb. Bundan sonra Ermənistanda Pakistan səfirliyinin açılması üzərində işə başlanıb. Pakistanın sovet ittifaqı dağılandan indiyə qədər Ermənistanda səfirlik açmaması Ermənistanın işğalçılığına etiraz, Azərbaycanın isə haqlı mövqeyinə ciddi dəstək idi. Pakistan bununla Ermənistanın Azərbaycan ərazilərinə təcavüzü ilə barışmadığını nümayiş etdirib. 2020-ci il Vətən müharibəsində Pakistan Azərbaycana ən yüksək səviyyədə siyasi, mənəvi dəstək olub. Azərbaycan ərazi bütövlüyünü tam bərpa eləyəndən sonra Pakistan-Ermənistan münasibətlərinin qurulması üçün şərait yarandı. Ona görə də Pekində qeyd etdiyimiz razılaşma əldə olundu və səfirliyin açılması prosesi də həmin razılaşmaya əsasən aparılır. Ermənistanın artıq Azərbaycanla sülh prosesinə rəvac verməsi, sülhə hazır olduğunu bəyan etməsi və işğal faktına son qoyulması Pakistanın ona münasibətinin dəyişməsi üçün əsas ola bilər”.

A.Quliyev hesab edir ki, bütün bunlara görə də Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasından əvvəl Pakistanla Ermənistan arasında səfirlik mübadiləsinin baş verməsi mümkündür: “Sülh müqaviləsi imzalanana qədər Ermənistanda Pakistan səfirliyinin açılması realdır. Böyük ehtimalla bu, belə də olacaq. Pakistanın Ermənistanla münasibətlərini mən Türkiyənin Ermənistanla münasibətlərini müqayisə etməzdim. Pakistanla Ermənistan arasında diplomatik münasibətlər ilk dəfə və yenicə yaranır”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# YAP-dan mühüm açıqlama: “Ramiz Mehdiyev bütün qurumlardan çıxarılacaq”

**Yeni Azərbaycan Partiyası (YAP) Təftiş Komissiyasının növbəti iclası keçirilib. İclasda Naxçıvan Muxtar Respublikasının rayon-şəhər təşkilatlarının aparatlarında 2025-ci ilin ikinci yarımilliyi, Göyçay və Kürdəmir rayon təşkilatlarının aparatlarında isə 2025-ci ilin birinci yarımilliyi ərzində aparılmış nəzarət-təftiş tədbirlərinin yekunları və cari məsələlər müzakirə olunub.**

Maraqlıdır, Təftiş Komissiyası YAP Veteranları Şurasının dövlət çevirilişinə cəhddə təqsirləndirilən üzvü Ramiz Mehdiyevlə bağlı məsələni də müzakirə edibmi?

Modern.az saytı bu sualla YAP Təftiş Komissiyasının üzvü, deputat Aydın Hüseynova müraciət edib. Deputatın suala cavabı belə olub:

“Ramiz Mehdiyevlə bağlı məsələ müzakirə edilməyib. Məlumdur ki, Ramiz Mehdiyevin törətdiyi cinayət partiyanın siyasəti ilə daban-dabana ziddir. Yeni Azərbaycan Partiyasının əsas prinsiplərindən biri dövlətçilik və qanunçuluqdur. Ramiz Mehdiyev isə dövlətçilik prinsipinə zidd gedib, beləliklə, həm də partiyanın prinsiplərini pozub. Əslində dövlət çevrilişinə cəhd edib və əsl siması aşkarlanıb. O təmsil olunduğu bütün qurumlardan çıxarılacaq. Hər hansı bir üzvün partiyadan kənarlaşdırılması ilə bağlı qərarı isə əsasən İdarə Heyəti verir. Bu gün onun üzvlüyü formaldır”.

Deputat qeyd edib ki, Ramiz Mehdiyev nizamnamə qaydalarına uyğun şəkildə YAP-dan xaric olunacaq: “Ramiz Mehdiyev cəmiyyət qarşısında bütün nüfuzunu itirib, qanun qarşısında da cavab verir. YAP-ın nizamanaməsində partiyaya daxil olma və kənarlaşdırmanın prosedurları var. Ramiz Mehdiyev o qaydalara uyğun şəkildə partiyadan xaric olunacaq”.

❑ **“Yeni Müsavat”**

# Paşinyandan 30 illik Qarabağ danışıqları haqda yeni etiraf

## Erməni baş nazir Azərbaycan Prezidentinin dəfələrlə söylədiyini niyə indi söyləyir?

**“Qarabağa aid danışıqlar prosesi heç vaxt Qarabağ probleminin həllinə yönəlməyib. Bütün danışıqlar prosesi Ermənistanı və müəyyən mənada Azərbaycanı geosiyasi tələdə saxlamaq məqsədi güdüb. Yəni bu danışıqlarda ”məqsəd Qarabağ problemini həll etmək deyil, Ermənistan Respublikasını müstəqil dövlətə çevrilmək imkanından məhrum etmək idi. Əslində isə Qarabağın taleyi 1996-da Lissabon sammitində Azərbaycanın xeyrinə həll olunub. Bütün bunlar barədə isə cəmiyyətə açıq şəkildə heç nə deyilməyib".**



Ermənistan baş naziri Nikol Paşinyan bu sözləri parlamentdə hökumət saatı zamanı çıxışında deyib. Əslində bu, həm də Azərbaycan Prezidenti İlham Əliyevin 30 illik sülh danışıqları barədə dəfələrlə söylədiklərinin təkrarı və təsdiqidir. Bəs, niyə Ermənistan lideri indi bunu etiraf etməli oldu?

Sabiq maliyyə naziri, professor Fikrət Yusifov “Yeni Müsavat”a bildirdi ki, Ermənistanın baş naziri Nikol Paşinyan bu gerçəkləri ölkəsinin parlament kürsüsündən səsləndirməklə, öz xalqına Qarabağ düyününün çözülməsi istiqamətində 30 ilə yaxın aparılan danışıqların əsil hədəfinin tamamilə başqa olduğunu demək istəyib: “Onun dedikləri həqiqətdir. Ancaq Paşinyan hər şeyi sona qədər demir. Gəlin bu hədəflərin Paşinyanın səsləndirmədiyi bir başqa üzündən danışaq. Ermənistanın o vaxtkı cinayətkar rəhbərləri bu danışıqları uzatmaqla zamanla Qarabağ məsələsini Azərbaycan xalqının yaddaşından silməyi hədəfləyirdi. Lakin bu cinayətkarlar bir məsələni hesablaya bilmədilər ki, Azərbaycan dövləti öz torpaqlarını onlara bağışlamayacaq və sadəcə olaraq zamanla onları geri almağın fürsətini yetişdirir”.

F.Yusifov hesab edir ki, Ermənistan dövlət başçısı bütün bunları söyləməklə erməni toplumunu real sülhə hazırlayır: “Paşinyan bu çıxışı ilə sanki erməni toplumuna deyir: ”ayıl ey millət, yetər kimlərinsə əlində dövlət adlı bir oyuncaq olmaq, artıq zaman yetişib - ya biz oyuncaq dövlət dərimizi yırtıb real bir dövlətə çevrilməliyik ya da məhv olmalıyıq". Paşinyanın Ermənistan parlamentindəki çıxışının açılımı budur. Yəni əslində Paşinyan bizim üçün yeni heç nə demir, sadəcə olaraq bir dövlət başçısı kimi xalqı qarşısında gerçəkləri etiraf edir. Etsin! Bu toplumun on illər uzunu beyni yuyulmuşları üçün bu həm də yaxşı təbliğatdır.

Bütün bunların fonunda demək istəyirəm ki, Paşinyan bu gün gerçəkdən Ermənistanı Rusiyanın forpostu, Fransa kimi dövlətlərin oyuncağı statusundan xilas etmək yolunda mücadilə edir və bu yolda az uğur da qazanmayıb".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Xankəndidə Türkiyə vətəndaşlarını qanunsuz işlədən qadın biznesmen cəzalandırıldı

**Xankəndidə əcnəbiləri qanunsuz əməyə cəlb edən şirkət cərimələnib.**

Musavat.com lent.az-a istinadən xəbər verir ki, şəhərdə fəaliyyət göstərən MMC-lərdən biri 12 Türkiyə vətəndaşını Azərbaycanda yaşayış icazəsi olmadan işlədib.

MMC-nin icraçı direktoru Günel Əlizadə həmin işçiləri müxtəlif vəzifələrdə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olduqlarını yazılı izahatında bildirib. Həmçinin əcnəbilərin hər biri də öz izahatlarında bu faktı təsdiq ediblər.

Miqrasiya Məcəlləsinin 63.4-cü maddəsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər hüquqi şəxslərin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin və xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin onlar üçün iş icazəsi almasından sonra Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul ola bilərlər. Lakin qeyd olunan Türkiyə vətəndaşları üçün həmin icazə alınmayıb.

Buna görə də MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 578.2-ci (əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin işə cəlb edilməsi qaydasının pozulması 3 və daha çox şəxs üçün törədildikdə) maddəsilə protokol tərtib olunub.

Xankəndi şəhər Məhkəməsinin qərarı ilə həmin şirkətə 30 min manat cərimə cəzası verilib.

YENİ MÜSAVAT
N 222 (8832) 6 dekabr 2025

# "Bəzi avantüristlər ciddi nəticə çıxartmalıdırlar!"

## Azər Əmiraslanov: "O administrasiya Ramiz Mehdiyevin administrasiyası olmayıb, Prezidentin Administrasiyası olub"

**Milli Məclis 2026-cı ilin büdcə zərfinə aid olan sənədləri iki oxunuşda müzakirəyə çıxararaq qəbul etdi. Bu gün çoxlarını maraqlandıran budur ki, gələn həftə qanun layihələrinin üçüncü oxunuşda müzakirəsi gözlənilir. Hökumət deputatların qaldırdığı məsələləri nə dərəcədə nəzərə alacaq, büdcə layihəsində əsaslı dəyişikliklər olacaqmı? Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bununla bağlı "Yeni Müsavat"a danışdı. Komitə sədri söhbətin gedişində Administrasiyanın sabiq rəhbəri Ramiz Mehdiyevlə bağlı sualları cavablandırdı. Yeri gəlmişkən, mediada və sosial şəbəkədə yayılan bəzi iddialara Azər bəyin münasibətini öyrəndik, komitə sədri ətraflı şəkildə suallarımızı cavablandırdı.**

**- Azər bəy, 2026-cı ilin dövlət büdcəsi iki oxunuşda qəbul olundu. Üçüncü oxunuşa qədər büdcə zərfində ciddi dəyişikliklər gözlənilləndirmi?**

- Deputatlar tərəfindən qaldırılan müəyyən məsələlər əsasən nəzərə alınır. Amma ümumi şəkildə qeyd etməliyik ki, büdcədə həm də əsaslı şəkildə investisiya vəsaitlərinin qoyuluşu nəzərdə tutulub. Mümkündür ki, gələcəkdə investisiya xərcləri daxilində regionların problemləri ilə bağlı məsələlər nəzərə alınacaq. Amma istənilən halda bütün məsələlər növbəti plenar iclasda açıqlanacaq və mən həmin çıxışı təqdim edəcəyəm. Hələlik biz komitə olaraq toplanmalıyıq və bu məsələlərə baxmalıyıq, komitənin qərarını təqdim etməliyik. Hələ açıqlanmalı elə bir məsələ yoxdur.

**- Sosial şəbəkələrdə, mediada ayrı-ayrı vətəndaşların maaş, təqüdlərin artırılması, aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı gözləntilərini izləməkdəyik. Gözləntisi olan vətəndaşlara nə deyə bilərsiniz: yanvardan etibarən hansısa artımlar olacaqmı, xüsusilə də qiymət artımlarının davam etməsi şəraitində?**

- Həm 1-ci, həm də 2-ci oxunuşda büdcə ilə bağlı məlumat verilib. Qeyd olunub ki, dövlət büdcəmiz hər şeydən əvvəl sosialyönümlüdür. Yəni sosial xərclərin büdcə strukturundakı yüksək payı 41 faizdir, bu, artıq hər şeyi deyir. İkinci tərəfdən, bir məsələni nəzərə almaq lazımdır ki, on illiklərlə Azərbaycanda dövlət siyasəti iqtisadi siyasətlə sosial siyasətin uzlaşdırılmasından ibarət olub. Hər zaman sosial məsələlərə diqqət göstərilib və qarşıdakı illər ərzində də dövlət tərəfindən rifah yönümlü, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi istiqamətində təşəbbüslər olacaq, konkret addımlar atılacaq. Yəni il ərzində cənab Prezident tərəfindən bu istiqamətdə bir qayda olaraq hər zaman müvafiq qərarlar və fərmanlar verilir. Bu gün bizdə həm sosial təminat, sosial müdafiə istiqamətində artımlar da nəzərdə tutulur, büdcənin icrasının gedişində və imkanlar yarandığı halda da bilavasitə müvafiq sosial xarakterli layihələr də həyata keçirilir. Yəni dövlətimizin iqtisadi imkanları genişlənir, qarşıdakı dövrdə yeni perspektivlər açılmaqdadır, ölkəmizin tranzit imkanları genişlənir. Biz görürük ki, artıq büdcəmiz qeyri-neft gəlirləri hesabına öz payını artırmaqdadır, qeyri-neft sektorunun payı 57 faizə gəlib çatıb. İqtisadiyyatda qeyri-neft sektorunun payı artıq 76 faizdir, növbəti illərdə 80 faizə çatacaq. Yəni bu, ciddi keyfiyyət dəyişiklikləri, iqtisadiyyatımızın gücünün artmasıdır. İqtisadiyyatın gücü artdıqca, bu, özünü həyat səviyyəsində də, sosial siyasətin gücləndirilməsində də göstərir. Bir sözlə, qarşıdakı dövr iqtisadiyyatımızın daha da güclənməsidir. Təkcə iqtisadiyyatımızın güclənməsi yox, həmçinin Azərbaycan iqtisadiyyatının regionda güclənməsi prosesi gedir, bununla bağlı dövlət başçısının çıxışları, açıqlamaları hər birimizə məlumdur. Ona görə də nəzərə almalıyıq ki, bir tərəfdən iqtisadiyyat, bir tərəfdən həyat səviyyəsi, digər tərəfdən Böyük Qayıdış Proqramının icra olunması və buna paralel olaraq dövlətimizin təhlükəsizliyinin təmin edilməsi, bütün bu taleyüklü strateji vəzifələr qarşıdakı il ərzində üst-üstə düşən paralel icra olunmalı məsələlərdir. Vətəndaşlarımız da, biz millət vəkilləri də Azərbaycanın yeni bir inkişaf mərhələsinə qədəm qoyduğunu nəzərə alırıq.



**- Azər bəy, bu günlərdə Ramiz Mehdiyev və ətrafında baş verənlərlə bağlı istintaq gedir, sözügedən məsələ ölkənin əsas müzakirə mövzularından biridir. Yəqin sizin də bu məsələlərə münasibətiniz var. Yeri gəlmişkən, siz müsahibə verərkən arxa fonda Ramiz Mehdiyevin müəllifi olduğu kitabın rəfdə görünməsi də birmənalı qarşılanmayıb. Bu barədə nə deyə bilərsiniz? Ümumiyyətlə, Ramiz Mehdiyevlə münasibətiniz necə olub və əlaqələriniz hansı səviyyədə idi?**

- Gəlin bir məsələni düzgün qeyd edək. Əgər söhbət videomaterialdan gedirsə, o, bir ilin videolenti deyil. O 2018-ci ildə hazırlanmış videodur. Səhv etmirəmsə, onun 80 illik yubileyi ərəfəsi idi. Mən Prezident Administrasiyasında şöbə müdiri işləmişəm. Cənab Prezidentin köməkçisi olmuşam, Ramiz Mehdiyevin köməkçisi olmamışam. Mən Prezidentin Administrasiyasının məsul əməkdaşı olmuşam, Ramiz Mehdiyevin Administrasiyasının əməkdaşı olmamışam. Həmin videoda da qeyd edilən fikir bundan ibarət olub ki, Azərbaycanda dövlətçiliyin qorunması ənənəsinin yaranması Ulu Öndərlə bağlıdır. Həmin videoda qeyd olunub ki, yeni mərhələdə dövlətimizin güclənməsi, dövlətimizin gücünün artırılması Prezident İlham Əliyevin adı ilə bağlıdır. Həmin videoda qeyd olunub ki, biz hər addımda Ulu Öndərin irsinə istinad edirik və dünən olduğu kimi, bu gün də Azərbaycan dövləti güclüdür. Azərbaycan dövlətinin gücünü nəzərə almayan, dövlətə qarşı çıxan istənilən avantürist ideyalar, təbii ki, məğlubiyyətə məhkumdur. Bir şeyi də xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycanda həmişə komandada vahidlik olub, dövlət qulluğu prinsipləri olub və bu prinsiplər hər daim nəzərə alınıb. Biz cənab Prezidentin komandasıyıq və bu gün dövlətə qarşı kim çıxırsa - dövlətimizin ədalətinə biz inanırıq - bizim xüsusi dövlət qurumlarının, təhlükəsizlik qurumlarının peşəkarlığına, dövlət təəssübkeşliyinə inanırıq. Hesab edirik ki, bu gün taleyüklü bir mərhələdə Azərbaycanın ən həssas bir mərhələsində dövlətə qarşı çıxmaq ən böyük xəyanətdir. Təbii ki, ötən on illərdə olduğu kimi, dövlətimizin əsaslarının kövrək olduğu bir vaxtda dövləti qorumaq ənənəsini biz yaratmışıq, Ulu Öndərin müdrikliк, rəhbərliyi ilə bu gün də, sabah da dövlətimiz dövlətçiliyi də, dövləti də qorumaq ənənəsini davam etdirəcək. Bunu hər kəs nəzərə almalı, dərk etməlidir, tək bu gün üçün yox, həm də sabah üçün.

**- Azər bəy, Siz o zaman Ramiz Mehdiyevin indi ortaya çıxan əməllərini müşahidə edirdinizmi? Təmaslarınızda Administrasiya rəhbəri haqqında hansı qənaətə gəlirdiniz?**

- Biz Administrasiyanın işçiləri olmuşuq. O zaman Ramiz Mehdiyev Administrasiyanın işini təşkil edirdi. Həmin dövrdə biz, təbii ki, onu dövlət qurumunun rəhbəri, yeni Administrasiya rəhbəri kimi müşahidə etmişik. O dövrdə hər hansı müşahidənin olduğu fikrini deyə bilmərəm. Çünki elə bir şey olsaydı, nəinki mən, orada dövlətini, Vətənini sevən digər həmkarlarımız, şöbə müdirləri, Prezidentin köməkçiləri olub. O bir mərhələ idi. Mənim həyatımın ən şərəfli, ən qürurverici mərhələsi, dövrü olub ki, mən Prezidentin Administrasiyasının əməkdaşı olmuşam, orda müəyyən töhfə verməyə çalışmışam, Prezidentimizin tapşırıqlarının icrasında yaxından iştirak etmişəm. Mən işimi hər zaman vicdanla yerinə yetirmişəm, əməlimdə hər zaman dövlət, dövlətçilik niyyəti olub. Kimsə əgər bizim siyasi mövqeyimiz, əqidəmizə şübhə edirsə, özünü əziyyətə salmasın. Biz bu illər ərzində əməlimizlə Prezidentimizə xidmətimizi göstərmişik. Kimlərsə bu cür ucuz spekulyasiyalara yer verməsin. Məni bilən də, tanıyan da yaxşı tanıyır, bilir. Ona görə də bu cür çamuratma əməliyyatlarına gərək yoxdur. Digər tərəfdən, bunu tirajlayanlar hər halda vicdanla yanaşsınlar. Necə olur ki, mənim saçıma düşən dən orda görünmür? Ən azı 10 ilin fərqi var, onu niyə son bir ilin videosu kimi təqdim edirlər. Məqsəd nədir? 10 il bundan əvvəlki videonu son bir ilin videosu kimi təqdim etməyin adı nədir? Digər tərəfdən, Administrasiyada dövlət qulluqçusu, şöbə müdiri kimi nələr olub, kimin mənə hansı haqsızlığı olub, hansı ədalətsizliyi olub, onu bilən də bilir, görən də görüb. Ona görə mən başqa bir şərh vermək istəmirəm. Belə yazı-pozulari, ittihamları da qəbul etmirəm. Sadəcə olaraq belə məsələlərə görə acı təəssüf hissi keçirirəm. Əsasən də ən çox pərişanlıq onadır ki, vaxtilə bu şeyləri görmək, müşahidə etmək olduqca çox dərin acı təəssüf hissi doğurur. Bizdən sonra gələcək xüsusən gənc dövlət qulluqçuları üçün daha yaxşı nümunələr olmalıdır. Onlar gələcəkdə bu cür pərişanlığı yaşamamalıdırlar.

**- Həmin kitab haqqında da məlumat versəniz, yaxşı olar. Maraqlıdır, Ramiz Mehdiyevin həmin kitabını oxmusunuzmu, yoxsa sadəcə kitab rəfində qoymuşdunuz? İmzası ilə özəl olaraq təqdim olunmuşdu?**

- Həmin dövrdə çoxlu sayda kitablar buraxılırdı və həmin kitablar bütün dövlət orqanlarına, məmurlara paylanırdı. Yəni nəinki Administrasiyanın işçilərinə, bütün dövlət orqanlarına, kitabxanalara. Bu da həmin kitablardan biri olub. Administrasiyanın əməkdaşları olaraq bizim Prezidentin Administrasiyasının nəinki rəhbəri, bütün əməkdaşlarına sayğımız sonsuz olub. O baxımdan ki, məhz Prezidentin Administrasiyasından söhbət gedir. O Administrasiya Ramiz Mehdiyevin Administrasiyası olmayıb, Prezidentin, dövlət başçısının Administrasiyası olub. Biz də dövlət qulluğu etikasını əsas götürmüşük, dövlət qulluğu prinsipindən çıxış etmişik. Oxumağa gəlsə, xeyir, nə oxumamışam, nə ona mənim vaxtım olmayıb. Cənab Prezidentin kifayət qədər tapşırıqları olub.

**- Nədən bəhs edirdi?**

- Vallah, inandırım sizi, əslində videoya düşən mənim kitab rəfimin hissəsi deyildi. Sadəcə olaraq oradakı texniki olan hissədir. Kitab rəfi tamam başqa guşədədir, onu da göstərməyiblər. Mən istənilən halda o videonu nümayiş etdirən kimdirsə, ona təşəkkürümü bildirirəm ki, o videonun özündə də dövlətimizə, Prezidentimizə, Ulu Öndərə münasibətimizi bir daha nümayiş etdirmişik. Bir daha onu qeyd etmək istərdik ki, istənilən bir qüvvə olsun, istər radikal müxalifət, istər Əli Kərimlinin cinahı, digər siyasi qüvvələr olsun, hər kəsin anlamalı olduğu bir şey var: dövlətimizin dayaqlarının ən kövrək olduğu illərdə, 90-cı illərin ortalarında əgər Azərbaycan dövləti öz gücünü, qüdrətini ortaya qoyubsa və heç kim bu dövlətə hansısa bir şəkildə təzyiq göstərə bilməyibsə, güc, əzələ nümayiş etdirə bilməyibsə, bu gün dövlətimizin gücləndiyi və daha da güclənəcəyi dövrdə bu cür avantüralara heç kim düşməsin! Nə bu gün düşməsin, nə də sabah! Azərbaycan təkcə regionumuzda yox, bütün beynəlxalq arenada öz gücünü artırmaqda olan bir dövlətdir. Biz bunu nəzərə almalıyıq. Bəzi avantüristlər də bunu nəzərə alıb, ciddi nəticə çıxartmalıdırlar!

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 222 (8832) 6 dekabr 2025

# Mehdiyevin "Dövlət Şurası" - 50-dən 4-ü, bəs digərləri...

## Sabiq millət vəkili yeni həbslərin anonsunu verdi; sırada kimlərdir?

**Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin dövlət çevrilişi planı ilə bağlı Rusiyanın müəyyən dairələrinə göndərdiyi məktub həbslərin davamını qaçılmaz edir.**

Məktubda qeyd olunur ki, yaradılması nəzərdə tutulan "Dövlət Şurası" 50 nəfərdən ibarət olmalı və bu üzvlər təcrübəli dövlət xadimləri, iqtisadçılar, hüquqşünaslar, elm və mədəniyyət nümayəndələrindən seçilməlidir. Hazırda bu iş üzrə üç nəfər - AMEA Prezidenti katibliyinin keçmiş rəisi, Ramiz Mehdiyevin köməkçisi vəzifəsində çalışmış Eldar Əmirov, AXCP sədri Əli Kərimli və partiyanın funksioneri Məmməd İbrahim saxlanılıb. Onlar barəsində 2 ay 15 günlük həbs qətimkan tədbiri seçilib. R.Mehdiyev isə 4 ay müddətinə ev dustaqlığına cəlb edilib.

Bu o deməkdir ki, bu iş üzrə istintaqa "Dövlət Şurası"nın yerdə qalan üzvləri (46 nəfər) də cəlb oluna bilər. Eyni zamanda, sabiq deputat Gültəkin Hacıbəylinin bu iş üzrə Türkiyədən gətiriləcək dindirilməsi gözlənilir.

Mehdiyevin siyahısındakı digər şəxslərin ifşası, "Dövlət Şurası"nın üzvlərinin üzə çıxarılması mümkündürmü?

Keçmiş millət vəkili, tanınmış hüquqşünas Qulamhüseyn Əlibəyli "Yeni Müsavat"a açıqlamasında baş verənlərin Azərbaycan dövlətçiliyi üçün təhlükələrindən söz açdı: "Həbs olunan şəxslərin ittiham olunduğu cinayət əməlləri barədə rəsmi məlumat verilmədiyindən mediada gedən məlumatlar əsasında ümumi mühakimələr yürütmək olar. Həmin məlumatların mahiyyəti bundan ibarətdir ki, Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev müxalifətin radikal kəsimi AXCP və Milli Şura ilə işbirliyinə gedərək dövlət hakimiyyətini zorla ələ keçirmək, dövləti idarə etmək üçün 50 nəfərdən ibarət tərkibdə "Dövlət Şurası" adlanan qurum yaratmaq niyyətində olub və bu barədə Rusiya hakimiyyət dairələrinə məktubla müraciət edib. Həmin məktubun ilkin variantı AXCP sədri Əli Kərimlinin evindən tapılıb. Məktubun mediada gedən variantında onun kim tərəfindən imzalandığı və hara ünvanlandığı göstərilməyib.

Azərbaycanın hüquq-mühafizə orqanları bu məlumatları Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər kimi qiymətləndirərək cinayət işi başlayıb, həbslər həyata keçiriblər.



Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin Rusiya hakimiyyət dairələri ilə yaxın münasibətləri, Azərbaycanda Rusiyanın "5-ci kolon"unun rəhbəri olması xəbəri yeni deyil və hamıya məlumdur. Bu məsələdə yeni məlumatlar müxalifətin bir hissəsinin Ramiz Mehdiyevlə və Rusiya hakimiyyəti ilə münasibətlərinin yaranmasıdır. Mediada bu münasibətlərin yaranması 2013-cü ildə prezident seçkiləri ərəfəsində "Milyarderlər İttifaqı"nın və seçki koalisiyası kimi Milli Şuranın yaranması ilə əlaqələndirilir. "Milyarderlər İttifaqı"nın Rusiya hakimiyyətinə yaxın adamlardan ibarət olması onu deməyə əsas verir ki, bu qurum prezident seçkilərinə Rusiyanın mümkün təsir imkanlarının genişləndirilməsi məqsədilə yaradılmışdı.

Azərbaycan müxalifətinin bir hissəsinin Ramiz Mehdiyevlə və Rusiya hakimiyyəti ilə əlaqələrinin və işbirliyinin yaranması faktiki baş veribsə, bu, dövlətçiliyimiz və milli təhlükəsizliyimiz üçün təhlükəli amil kimi qiymətləndirilməlidir. Rusiya hakimiyyətinin bundan istifadə edərək Azərbaycanda mümkün təsir imkanlarını genişləndirməyə cəhdlər göstərməsi şübhə doğurmamalıdır. Bu baxımdan Ramiz Mehdiyevin dövlət çevrilişi ilə bağlı məsələ daha geniş kontekstdə Rusiyanın planları kimi nəzərdən keçirilə bilər.

Həbs olunan şəxslərin ittiham olunduğu maddə bir tərəfdən hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına və ya dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərin qəsdən törədilməsi kimi əməlləri nəzərdə tutur. Özü də bu hərəkətlər zorakılıqla müşayiət olunmalıdır. Yəni zorakılığın həm fiziki, həm də psixoloji formaları tətbiq oluna bilər".

Q.Əlibəyli həbslər dalğasının davamlı olacağını proqnozlaşdırır: "Mahiyyət etibarilə dövlət çevrilişinin məzmununu təşkil edən zorakı hərəkətlər bir neçə nəfər tərəfindən planlaşdırıla bilər. Lakin onların həyata keçirilməsi çoxsaylı subyektlərin iştirakı ilə mümkündür. Özü də bu subyektlər təkcə "Dövlət Şurası" adlı qurumun üzvlərindən ibarət olmaya bilər. Mövcud hakimiyyət strukturlarında vəzifə tutan şəxslər də bu prosesə cəlb oluna bilər. Ona görə də növbəti həbslər dalğasının olacağı ehtimalı böyükdür".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Sərhədlər bu tarixdə açılacaq? - gözlənti

## Nə baş verəcəksə, Azərbaycanla koordinasiyalı şəkildə baş verəcək



**"Türkiyə yaxın altı ay ərzində Ermənistanla quru sərhədini açmağı nəzərdən keçirir. Bu addım Avropada "soyuq müharibə" dövründən qalan axırıncı qapalı sərhədə son qoyacaq və Cənubi Qafqazda ticarətin bərpasına şərait yaradacaq".**

Musavat.com xəbər verir ki, bu barədə "Bloomberg" mənbələri məlumat yayıb.

Mənbələrin sözlərinə görə, Azərbaycanla diplomatik irəliləyiş və Türkiyə-Ermənistan sərhədinin açılması 2026-cı ilin iyununda keçiriləcək parlament seçkiləri öncəsi Ermənistanın baş naziri Nikol Paşinyana mühüm siyasi dəstək qazandıra bilər.

Həmsöhbətlər bildiriblər ki, yalnız belə razılaşmalar əldə olunduqdan sonra Türkiyə Ermənistanda səfir göndərə və iki ölkə arasında diplomatik münasibətləri tam bərpa edə bilər.

Bu nədir, ehtimal, yoxsa informasiya? Qərb mediasının sərhədlərin açılacağı ilə bağlı bu əminliyi haradandır? Belə çıxır, Ankara sülh müqaviləsi imzalanmadan, sadəcə, Paşinyanın partiyasına seçki dəstəyi üçün sərhədləri aça bilər?

Politoloq Oqtay Qasımov "Yeni Müsavat"a bildirdi ki, 44 günlük Vətən müharibəsindən sonrakı dönəmdə Türkiyə və Ermənistan arasında münasibətlərdə irəliləyiş var və tərəflər münasibətlərin normallaşması üçün xüsusi nümayəndələr təyin eləyiblər: "Xüsusi nümayəndələr bu günə qədər altı görüş keçiriblər və bu görüşlərdə münasibətlərin normallaşması üçün ciddi addımlar atılıb. Bir çox istiqamətlərdə müəyyən razılaşmalar mövcuddur. O cümlədən sərhədlərin üçüncü ölkə vətəndaşlarına açılması gələcəkdə Gümrü-Qars dəmiryolunun bərpası, elektrik şəbəkələrinin bir-birilə əlaqələndirilməsi və digər məsələlər artıq prinsip olaraq razılaşdırılıb. O ki qaldı "Bloomberg" nəşrinin 6 ay ərzində Türkiyənin Ermənistanla sərhədlərini açacağı barədə iddiasına, bu iddia üçün müəyyən əsasların olduğunu, görünür ki, onlar nəzərə alırlar. Belə ki, xüsusilə də 8 avqust Vaşinqton görüşündə sülh müqaviləsinin mətninin paraflanması və Zəngəzur dəhlizi - TRİP marşrutunun açılması ilə bağlı əldə olunmuş razılaşmalar prosesə ciddi şəkildə təsir etdi. Məhz bundan sonra Azərbaycanın iki ən yaxın müttəfiqi Türkiyə və Pakistanın Ermənistanla münasibətlərində də bir ciddi irəliləyişlərin əldə olunduğunu deyə bilərik. Pakistan Ermənistanla diplomatik münasibətləri qurmaq prosesinə başladı, Türkiyə ilə Ermənistan xüsusi nümayəndələrinin 6-cı görüşü keçirilib və bu görüş kifayət qədər konstruktiv görüş oldu".

Politoloqun sözlərinə görə, ümumən götürdükdə münasibətlərin düzəlməsi istiqamətində işlər intensiv xarakter alıb, amma amma sərhədlərin konkret olaraq 6 ay ərzində açılacağının iddia, yoxsa dəqiq informasiya olduğunu söyləmək biraz çətindir: "Lakin nəzərə alsaq ki, Türkiyə tərəfinin sərhədlərin açılması üçün dəfələrlə açıqlanmış mövqeyi var. İki həftə öncə xarici işlər naziri Hakan Fidan bəyan etdi ki, sərhədlərin açılması Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasına bağlı məsələdir. Nazir bir daha bəyan etdi ki, Türkiyə sərhədlərin açılması məsələsini iki şərtə bağlayır. Birinci şərt Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması, ikinci şərt Zəngəzur dəhlizinin açılmasıdır. İkinci şərtin həyata keçməsi ilə bağlı artıq müəyyən addımlar atılıb, ABŞ və Ermənistan nümayəndələri arasında keçirilən görüşdə ilkin razılaşmalar əldə olunub və Paşinyanın da bəyan etdiyi kimi, bu marşrutun açılması ilə bağlı sahədə işlər gələn ilin ikinci yarısında başlanacaq. Azərbaycanla sülh sazişinə gəldikdə isə, bu Ermənistandan konstitusiya dəyişikliyinin vacibliyini özündə əks etdirir. Yəni bu məsələlər həllini tapmadıqca düşünmürəm ki, Türkiyə Azərbaycanla razılaşmadan Ermənistanla sərhədlərini açsın".

O.Qasımov əmindir ki, nə baş verəcəksə Azərbaycanla koordinasiyalı şəkildə baş verəcək: "Sərhədlərin Azərbaycanla razılaşdırılmaqla qarşıdakı 6 ayda açılması ehtimalı çox yüksək olmasa da mümkün variantlardan biridir. Hesab edirəm ki, bu, bölgədəki vəziyyətdən ciddi şəkildə asılı olacaq. Amma böyük ehtimalla elə addımlar atıla bilər ki, sərhədlər tam şəkildə açılmasa da müəyyən məhdudiyyət çərçivədə açıla bilər. Bu da Nikol Paşinyana seçkilərdə əlavə siyasi dividendlər qazandıra bilər".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 222 (8832) 6 dekabr 2025

# Putin müharibəni, Zelenski müdafiəni seçir

## Kiyevə yeni silahlar veriləcəkmi?

**Dekabrın 2-də Kremldə Rusiya prezidenti Vladimir Putinlə 5 saatlıq danışıqlardan sonra ABŞ prezidentinin elçiləri Stiv Uitkof və Cared Kuşner heç bir mühüm nəticə əldə etmədən Moskvanı tərk ediblər. Bu barədə CNN-in yaydığı məlumatda deyilir.**

Nəşrin fikrincə, Putin yavaş, lakin sabit hərbi üstünlük hiss edir, Ukrayna isə resurs çatışmazlığı və siyasi böhranla üzləşir.

Putin bildirib ki, Rusiya istənilən halda, hərbi və ya başqa yolla Donbas və Novorossiyanı azad edəcək (Ukraynanın suveren ərazilərinin işğalını nəzərdə tutur - red.).

NATO-nun baş katibi Mark Rutte isə deyib ki, əgər sülh prosesi uzansa və ya nəticə verməsə, ruslar başa düşməlidirlər ki, Ukraynaya silah axını davam edəcək.

Avropa liderləri Ukrayna lideri Vladimir Zelenskini ABŞ-a qarşı ehtiyatlı olmağa çağırıb: "Çünki o, Kremllə danışıqlarda Kiyevə və Avropaya xəyanət edə bilər".

Yeni silahlar döyüş meydanında və danışıqlar masası arxasında Ukraynanın mövqeyini gücləndirə bilərmi? ABŞ, nəhayət, Kiyevə Tomahawk raketləri verəcəkmi?

Siyasi şərhçi Heydər Oğuz "Yeni Müsavat"a açıqlamasında bildirib ki, ABŞ-ın Ukrayna-Rusiya müharibəsində tutduğu mövqe həqiqətən də mübahisəlidir: "Avropa və Ukrayna bütün ümidlərini ona bağlayıb, o isə öz müttəfiqlərinin maraqlarını Rusiyaya satmaqla alver edir. Bir çoxları bunun günahını Tramp hakimiyyətində görürlər. Halbuki ABŞ yarandığı tarixdən indiyədək yalnız öz maraqlarını düşünüb, yalnız özünə sərf edən siyasətlər yürüdüb. Bütün bunlar təəccüblü deyil. ABŞ özünü dünyanın ən böyük güc mərkəzi hesab etdiyindən Rusiyaya real düşmən kimi baxmır. Sadəcə "rus xofu" yaradaraq ona sığınan qüvvələri istismar etməkdən, son anda isə müttəfiq adlandırdığı subyektləri satmaqdan belə çəkinmir. Trampın dəfələrlə dilə gətirdiyi "Rusiya ilə ABŞ arasında keçilməsi olduqca çətin okeanlar var, Ukrayna savaşı bizim savaşımız deyil" fikirləri də Vaşinqtonun əsl simasını ortaya qoyur. Təəssüf ki, Ukrayna və Avropa liderləri ABŞ-nin bu simasını vaxtında görə bilmədi və bu strateji səhvləri onları çox ağır durumlara saldı".

Ekspertin fikrincə, ABŞ-nin Rusiya meyilli siyasət xəttinə üstünlük verməsi onun yeni dünya düzəni qurmaq strategiyasından irəli gəlir: "Bu konfiqurasiyada Avropa ölkələrinin subyekt kimi ortaya çıxması Vaşinqtonun maraqlarına uyğun deyil. ABŞ-nin nəzərində Avropa ölkələri ələ keçirilməyə, ram olunmağa layiq obyektdir. Onu qorxutmaq, ABŞ-nin qucağına sığınmağa məhkum etmək üçün "ümumi düşmən" obrazına ehtiyac var. Bu düşmən obrazı ya Rusiya, ya da Çin ola bilərdi. Çinlə rəqabət ABŞ-ni qorxutduğundan o, düşmən kimi Rusiyanı seçməyə üstünlük verir. Çünki Rusiya iqtisadi tərəqqi, insan gücü və ordu baxımından daha zəif dövlətdir".



Hərbi ekspert Rövşən Məhərrəmov "Yeni Müsavat"a deyib ki, Moskva danışıqlarının nəticəsiz qalması bir daha göstərdi ki, Rusiya müharibəni uzatmaq strategiyasını artıq oturuşdurub: "Kreml sənaye istehsalını tam hərbiləşdirib və bu şəraitdə Putinin geri çəkilmək niyyəti yoxdur. Rusiya rəhbərliyi hesab edir ki, zaman faktoru onların xeyrinə işləyir və Qərb Ukraynaya dəstəyi zəiflədəndə Moskva müharibə xəttində daha rahat hərəkət edə biləcək. Putinin Donbas və Novorossiya barədə sərt bəyanatı da bunu təsdiqləyir. Kreml bu əraziləri artıq geridönməz siyasi reallıq kimi təqdim edir. Bu isə danışıqların mahiyyət etibarilə çıxılmaz vəziyyətə düşməsi deməkdir".

Hərbi ekspert hesab edir ki, Avropa liderlərinin Zelenskiyə "ABŞ ilə ehtiyatlı ol" mesajı Qərb daxilində ciddi fikir ayrılığının olduğunun göstəricisidir: "ABŞ-nin müharibəni qısa müddətdə bitirmək maraqları ilə Avropanın Rusiyanı strateji məğlubiyyətə uğratmaq məqsədi üst-üstə düşmür. Ona görə də Paris, Berlin və digər Avropa paytaxtlarında narahatlıq güclənir: Vaşinqton hansısa qapalı sövdələşmədə Ukraynanı kompromisə məcbur edə bilər. Bu ziddiyyətli fonda əsas sual Ukraynanın hərbi potensialının necə dəyişəcəyi ilə bağlıdır. Yeni silah paketləri, xüsusilə uzunmənzilli zərbə vasitələri Ukraynanın döyüş meydanındakı zəif tərəflərini müəyyən qədər kompensasiya edə bilər. Lakin bunun strateji mənzərəni tam dəyişəcəyini demək doğru olmaz. "Tomahawk" raketlərinin verilməsi (veriləcəyi halda) Ukraynaya iki kritik üstünlük qazandırar - Rusiyanın dərin arxa cəbhəsindəki logistik qovşaqlara zərbə imkanları genişlənər və Kiyevin danışıqlar masasındakı mövqeləri güclənər. Amma Vaşinqtonun bu addımı atması həm eskalasiya riski, həm də ABŞ daxilindəki siyasi qeyri-müəyyənlik səbəbindən hələ də sual altındadır. Hazırkı mərhələdə əsas mübarizə döyüş meydanından çox diplomatik masada gedir. Rusiya uzunmüddətli müharibəyə hazırdır, Ukrayna isə yalnız Qərb dəstəyinin intensivliyindən asılı olaraq müqavimət göstərə bilir. Bu səbəbdən, yaxın aylarda müharibənin taleyini klassik qoşun əməliyyatları deyil, Qərbin göndərdiyi silahların keyfiyyəti və Vaşinqton-Brüssel-Moskva xəttində aparılan siyasi oyunlar müəyyən edəcək".

Hərbi ekspertin qənaətinə görə, müharibənin nəticəsini səngər döyüşləri yox, siyasi iradə və yüksək dəqiqlikli raketlərin yaratdığı üstünlük müəyyənləşdirəcək.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Trampdan sonra ABŞ-ı 8 il o idarə edəcək?

## Azərbaycan üçün hansı sərfəlidir? Ekspertlər Bakının Vaşinqtonla əlaqələrdə daim maraqlı olduğunu deyirlər

**ABŞ-ın növbəti 12 il ərzində siyasi trayektoriyasını hazırkı prezident Donald Tramp və vitse-prezident Ceyms Devid Vens arasında koalisiya müəyyən edəcək. Bu barədə milyarder İlon Mask deyib.**

"Politico"nun məlumatına görə, noyabrın sonlarında Respublikaçılar Partiyasının üzvləri və təəssübkeşləri qarşısında qapalı toplantıda çıxışı zamanı Mask bildirib ki, Donald Trampın prezidentlik müddəti 2028-ci ildə başa çatdıqdan sonra ölkə Vensin rəhbərliyi altında iki prezidentlik müddəti ilə üzləşəcək.



Maskın proqnozu nə dərəcədə reallaşa bilər? Azərbaycana Vensin prezident olması sərfəlidirmi?

Siyasi təhlilçi Sona Əliyeva "Yeni Müsavat"a dedi ki, Amerika prezidentin kim olmasından asılı olmayaraq Bakı hər zaman Vaşinqtonla münasibətlərin inkişafında maraqlıdır: "ABŞ tarixində ikili prezidentlik anlayışı əslində yeni anlayış deyil. Birləşmiş Ştatların ikinci prezidenti Con Adamsın dövründə daxili siyasət faktiki olaraq təcrübəli siyasətçi və vitse-prezident Tomas Ceffersona tapşırılmışdı. Amma bu, sırf de-fakto ikili idarəetmə idi.

İlon Maskın açıqlamasından hiss etmək olar ki, milyarder de-yure ikili idarəetməni nəzərdə tutur. Koalisiyalı icraedici idarəetmə institutu hazırda yalnız Bosniya və Herseqovinada mövcuddur. Uzun illərdir ki, bu ölkədə daxili siyasi sabitliyin bərqərar olması mümkün olmur. Tez-tez fikir ayrılıqları və istefalar baş verir. Amerika kimi supergücün ikili idarəetmə sisteminə keçidi hazırda inandırıcı görünmür. Çünki Çin və Rusiya ilə açıq-qapalı iqtisadi-hərbi savaşlar fonunda bu, Birləşmiş Ştatların siyasi iflicinə gətirib çıxara bilər. Digər tərəfdən, Donald Tramp sadəcə məsləhətçi kimi öz xələfinə dəstək verə bilər ki, bu da normal haldır. Yeni Trampın de-yure səlahiyyəti olmayacaq. 224 il əvvəlki "Toni Adams təcrübəsi" isə bütün hallarda mümkündür. Vens isə ermənipərəst və xristian-demokrat şinelli siyasətçidir. Amma bu onun şəxsi mövqeyidir. ABŞ siyasəti isə şəxsi maraqları dövlət maraqlarının kölgəsində gizlətməyi çox yaxşı bacarır. İstənilən halda, Bakı hər zaman Vaşinqtonla münasibətlərin inkişafında maraqlıdır".

Ədalət Partiyasının sədri Mütəllim Rəhimli Vensin prezidentliyini Azərbaycan üçün sərfəli sayır: "Vensə prezident Trampın varisi kimi baxılır. O, vitse-prezident kimi Trampın siyasətini icra edir və Respublikaçılar Partiyasında getdikcə populyarlıq qazanır. 2024-cü il seçkilərində Vensin vitse-prezidentliyə namizədliyi Trampın qələbəsində mühüm rol oynayıb. Siyasi təhlilçilərə görə, 2028-ci ildə Vensin prezidentlik yarışına qatılması və qələbəsi mümkündür. ABŞ-də iqtisadi artım davam edərsə, onun uğuru kifayət qədər real görünür. Əgər Vens 2029-da qazanarsa, ikinci müddət (2033) üçün də şansı yaxşı ola bilər.

Ancaq risklər də yox deyildir. Tramp administrasiyasında hüquqi mübahisələr və iqtisadi böhranlar kimi potensial skandallar, eləcə də Ukrayna və Çinlə bağlı qeyri-müəyyənliklər Vensin şansını azalda bilər. Vensin gənc olması (41 yaşı var), bundan irəli gələn təcrübəsizliyi onun qələbə şansını azaldır.

Bununla belə, ümumilikdə Maskın proqnozu optimistdir. Lakin ABŞ siyasətində "12 illik" hegemonluq nadir hallarda baş verir. Yalnız Ruzveltin hakimiyyəti dövrü istisnadır.

Vensin prezident olması Azərbaycan üçün ümumilikdə sərfəli ola bilər. Vens prezident Trampın siyasətini davam etdirəcək. ABŞ-nin maraqlarını prioritet götürərək Avropa və NATO-ya qarşı daha sərt yanaşma nümayiş etdirəcək. Bu, Azərbaycanın strateji mövqeyini gücləndirə bilər. Xüsusilə, enerji ixracı, Azərbaycanın nəqliyyat qovşağına çevrilməsi, Cənubi Qafqazda sabitlik məsələlərində ölkəmizin mövqeyi güclənəcək.

Azərbaycanın TAP xətti vasitəsilə ABŞ-a qaz ixracı artacaq, Rusiya və İranın təsirinə qarşı ABŞ dəstəyi güclənəcək.

Trampın prezidentliyinin 1-ci dövründə Azərbaycanın Qarabağ qələbəsi ABŞ tərəfindən dəstəklənib. Şübhəsiz ki, Vens bu siyasəti davam etdirərək, Ermənistanın Rusiyaya yaxınlaşmasını məhdudlaşdıra bilər. O, 2025-ci ilin fevralındakı çıxışında Azərbaycanı strateji müttəfiq kimi vurğulayıb.

Trampın Azərbaycana münasibəti Bayden və demokratlardan yaxşıdır. Qarabağ müharibəsində neytral mövqe və 2025-ci ilin avqustunda Prezident İlham Əliyevin yüksək səviyyəli qəbulu münasibətləri istiləşdirib. Vensin bu ənənəni qoruyacağını iddia etmək olar. Bayden dövründə isə ABŞ-nin Ermənistan sevgisi və tərəfdarlığı güclü idi.

Çox güman ki, Vensin liderliyi ilə münasibətlər Tramp dövründəki kimi qalacaq və ya daha produktiv olacaq. Azərbaycanın suverenliyi dəstəklənəcək, 907-ci düzəlişin ləğvi gündəmdə olacaq, hərbi əməkdaşlıq güclənəcək.

Bütün bu fikirlər cari tendensiyalara əsaslanır, lakin nəzərə almaq lazımdır ki, siyasət sürprizlərlə doludur".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 222 (8832) 6 dekabr 2025



# Məhsəti - necə yoxsa

Zamin HACI
zaminhaci@gmail.com

**Əmək müfəttişliyi bugünlərdə Xəzər Universitetini əməkdaşlarla müqaviləni düzgün bağlamadığı üçün 2 min manat cərimələmişdi. Ancaq xəbərdə mənim diqqətimi çəkən ünvan idi: Məhsəti küçəsi. Universitetin "Neftçilər" metrosu tərəfdəki ofisi məhz bu qadın şairəmizin ismini daşıyan küçədə yerləşirmiş. İstəsəniz bunu da Məhsətiyə qarşı təzyiqlərin növbəti dalğası saymaq olar.**

Zarafatsız, biz həmişə kinomuzun pis vəziyyətdə olduğundan gileylənirik, ancaq birdən elə söhbətlər ortaya çıxır, qalırsan mat-məəttəl. İndi də deyirlər, keçmiş mədəniyyət nazirimiz Əbülfəs müəllim Məhsəti haqqında nəsə biədəb film çəkib, Mədəniyyət Nazirliyi isə ona yayım lisenziyası verməyib. Bir növ, film respublikamızda qadağan edilmişdir. Buyur. Al, sənə Pazolini...

Doğrudur, həmin 12 dəqiqəlik filmə baxanların rəyinə görə, orada əslində filmdən əsər-əlamət yoxdur və Əbülfəs müəllim necə nazir işləmişdisə, çəkdiyi kino da onun tayıdır. (Filmi onun Britaniyada yaşayan qızının çəkdiyi söylənir, ancaq mən buna inanmıram. Qarayev nazir işləməsə çətin onun qızına kino çəkməyə pul verərdilər. Bizim kino ixtisasında oxuyan tələbələr nazirlikdən qəpik-quruş qonorarlarını adətən it zülümü ilə alır). Lakin qadağan olunması istər-istəməz ona qısamüddətli şöhrət gətirir. Nə qədər insan bu saat həmin kinonu axtarır.

İnternet dövründə belə şeylərə "Streyzand effekti" deyirlər. Nəyisə qadağan edəndə, ona diqqət daha çox artır. Bunun yaranmasının maraqlı tarixçəsi var. 2003-cü ildə ABŞ-da bir fotoqraf hökumətin sifarişi ilə Kaliforniya ştatı boyunca okean sahilində erroziyanı araşdırmaq üçün 12 mindən çox foto çəkir, internetə yerləşdirir. Bunlar arasında 2 Oskar ödüllü aktrisa Barbara Streyzandın villasının fotosu da olur. Streyzand fotoqrafı məhkəməyə verir, lakin məhkəmə aktrisanın əleyhinə qərar çıxarır və üstəlik, fotoqrafın məhkəmə xərclərini - 154 min dolları ödəməyi də Streyzandın boynuna qoyur. Və proses zamanı məlum olur ki, əgər şikayətdən qabaq həmin fotolara internetdə cəmi 6 baxış-endirmə sayı olubsa (bunun ikisini elə Streyzandın vəkilləri edibmiş), məhkəmədən sonra villanın fotosu həm bütün dünya mediasına yayılır, həmçinin baxış sayı... 420 mini keçir!

İnşallah, Əbülfəs müəllim də "Oskar"ı ölkəmizə gətirsin. Haçana qədər Moskvada balıq satmaq olar? Belə vətənpərvər addımlar da lazımdır. Üstəlik, adı Ramiz müəllimlə yanaşı səslənən bir zamanda təmizə çıxmaq üçün vacibdir.

Məni isə məsələnin Məhsəti tərəfi, yəni gender mövzusu düşündürdü. Əgər Məhsəti qadın olmasaydı, onun barəsində belə erotik məzmunda film çəkərdilərmi? İnanmağım gəlmir. Bizim ölkədə qadınlar ən aşağı hüquqlu insanlardır, daim təhqir edilən, zülm görən, öldürülən məhz qadınlardır. Kişi nə qələt edir, etsin, ona olar, zənən isə hətta erotik rübai də yaza bilməz. Nəinki bugünümüzdə, hətta tariximizdə də hansısa qadını tapıb alçaltmaq dəbdədir. Məsələn, bir zaman bəzi düşüklər Həcərin qeybətini qırırdılar.

Qadın olmaq dünyanın əsasən müsəlman bölgələrində çox faciəvidir. Sözgəlişi, bugünlərdə İran lideri Xomeyni müəllimin guya qadınlara hörmət əlamətli tviti yayılmışdı. Deyir, qadınlar evin sahibidir, qulluqçusu deyil, qadınlar çiçəkdir, onları qorumalıyıq və bunu eləsək qadınlar bizi ətri ilə zənginləşdirər. Az qalıb yazsın zənənləri dibçəyə əkib, dibini sulamalıyıq...

Özü də maraqlıdır ki, bizdə qadın hüquqlarının qorunmadığını xaricilər də anlayır. Natəvanın Fransadakı heykəlinə boya yaxanları xatırlayaq. Sən Məhsətiyə ilişəndə, o da Natəvana sataşacaq.

Qadınlara yönəlmiş cinayətlərin, qadına nifrətin də artıq beynəlxalq terminologiyada adı qoyulub, buna "femisid" deyilir. Avropanın bəzi ölkələrində femisid cinayətlərinə görə ömürlük cəza verilməsi kampaniyası başladılıb, son olaraq keçən həftə İtaliya belə qanun qəbul etdi. Məncə, Azərbaycan da oxşar qanunlar qəbul etsə, qadınlara qarşı cinayətlər azalar.

***P.S.** Yazının başlığı bu temada sovet vaxtı özünü tutmuş, lakin indi susan bir nəfər alim yoldaşa parodiyadır.*




# İsrail Zəngəzura yerləşir - Paşinyandan İrana "soyuq duş"

## Yəhudi dövlətinin "Tramp marşrutu"nda iki strateji marağı var və İrəvanla təmaslar qurur; Tehranın Ermənistana təzyiqləri artacaqmı?

**Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan İsrailə səfər edib. İsrail Xarici İşlər Nazirliyinin baş direktoru Eden Bar-Tal ilə görüşüb. "Bakı-Xəbər" qəzeti bu barədə İsrailin "Jewish News Syndicate" nəşrinə istinadla yazıb.**

Kostanyanın səfəri zamanı Zəngəzur dəhlizi əsas mövzu olub. Bildirilir ki, İsrailin "Tramp marşrutu"nda iki strateji marağı var: ABŞ və Azərbaycanın təşəbbüslərini dəstəkləmək və Tehranın Ermənistanla sərhədini faktiki olaraq Vaşinqtonun nəzarəti altında saxlamağa nail olmaq.

Qeyd edək ki, ABŞ və İranda təhsil almış, fars dilini də yaxşı bilən Kostanyan Tehrana çoxsaylı yüksək səviyyəli nümayəndə heyətlərinin tərkibində də səfər edib. Onun İsrail səfəri isə o səbəbə strateji əhəmiyyət kəsb edir ki, bu, İrəvanın dəhliz prosesini inkişaf etdirmək, ABŞ və müttəfiqləri ilə birləşməni sürətləndirmək üçün İranın narazılığını ciddiyə almamağa hazır olduğunu göstərir.

Bu arada Nikol Paşinyan bildirib ki, 8 avqustda Vaşinqtonda əldə edilən razılaşmalardan və TRIPP layihəsinin elan edilməsindən sonra Ermənistana investisiya marağı xeyli artıb. "TRIPP layihəsinin strateji çərçivəsini dəqiqləşdirmək üçün fəal şəkildə işləməyə davam edirik. Hazırda sənədlər üzərində işləyirik və deyə bilərəm ki, yaxşı templə irəliləyirik. TRIPP layihəsini müəyyən edilmiş müddət ərzində həyata keçirəcəyik", - Baş nazir əlavə edib.

"Tramp marşrutu" (TRIPP - Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçməli olan 42 kilometrlik hissəsi) layihəsinin vaxtında həyata keçirilməsi Cənubi Qafqaz regionu üçün birinci dərəcəli əhəmiyyətə malikdir". Bunu isə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Vyanada ATƏT Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) 32-ci iclasında çıxışı zamanı bildirib.

C.Bayramov vurğulayıb ki, bu multimodal marşrut dəmir yolu, avtomobil yolu və digər kommunikasiyaları əhatə edəcək. "TRIPP Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməli, həmçinin Ermənistan üçün fayda gətirməlidir. Dəfələrlə bəyan edildiyi kimi, kommunikasiyaların açılması (regionda - red.) yalnız Ermənistan və Azərbaycan arasında sülhün dayanıqlığının təmin edilməsi ilə məhdudlaşmır, həm də daha böyük miqyasda əhəmiyyətli faydalar gətirir", - Azərbaycan XİN başçısı bildirib.

İsrail-Ermənistan təmasları, Zəngəzur dəhlizi ilə bağlı yəhudi dövlətinin strateji maraqları İranda necə qarşılanacaq? Tehran İrəvana təzyiqləri artıracaq, yoxsa bu məsələdə razılaşma var? Azərbaycanın "sionist rejimi"ni cənub sərhədlərinə yerləşdirməkdə ittiham edən Tehran indi İrəvanın bu təmaslarına nə deyəcək?

Professor Qabil Hüseynli İranın Zəngəzur dəhlizi ilə bağlı reallığı qəbul etdiyini fikirləşir. Politoloq güman edir ki, Tehran bölgədə yaranan şəraitə uyğun olaraq əvvəlki ritorikanı tez-tez təkrarlamır: "İran hökuməti dəhlizlə bağlı müsbət fikirlər səsləndirir, dini rejimin nümayəndələri isə əleyhinə çıxır. Bu ikitirəliyə baxmayaraq, 8 avqustda ABŞ-Ermənistan razılaşması İranın dilini qısa edib. Tehrandakı rejim "Tramp marşrutu" adlanan logistika haqda köhnə narrativləri dilə gətirmir. Görünür ki, dəhlizdən pay ümidi var. O nöqteyi-nəzərdən İsrail-Ermənistan təmasları hər nə qədər İranın xoşuna gəlməsə də, indi seyirçi mövqeyindədir. Çünki Tehran dəhlizə müqavimət göstərmək üçün Moskvanın dəstəyinə arxalanır. Hazırda isə Moskva Trampla dialoqu pozmamaq üçün onun adını daşıyan marşrut xətti ilə bağlı pozuculuq etmək istəmir. Odur ki, İran və Rusiya gözləməyi üstün tutur. Nəticə etibarı ilə erməni tərəfinin İsraillə danışıqlarına Tehran hələ ki susur".

Vətəndaş Həmrəyliyi Partiyasının Siyasi Şura üzvü Fikrət Nəsrəddinzadə isə Ermənistanın İsraillə əlaqələrini ABŞ-la əlaqələndirir. Onun fikrincə, bu iki ölkənin heç vaxt yaxşı münasibətləri olmayıb: "Bu da İsrailin bizə verdiyi dəstəkdən irəli gəlir. Öz növbəsində İran da Ermənistanı - yəni işğalçının tərəfini saxlayıb. İndi Cənubi Qafqazda paradiqmalar dəyişir, Bakı və İrəvan barışır, bu da siyasətə yenidən baxmağı zəruri edir. Məsələn, Ermənistanın son addımları tamamilə anti-İrandır. İstərsə dəhlizə nəzarəti Amerika şirkətinə verməsi olsun, istərsə bu yöndə İsrailin strateji maraqlarının nəzərə alınması, istərsə də hamısından qabaq avropalı müşahidəçiləri sərhədə yerləşdirməsi. Hər biri İranda qıcıq yaradır, amma hesablaşmalı olur".

F. Nəsrəddinzadə Zəngəzur dəhlizinin istənilən halda açılacağına əmindir: "Dünya üçün Orta dəhlizin bir hissəsidir, bizə görə Naxçıvana quru yol təminatıdır, Ermənistana isə iqtisadi nəfəslikdir. Burada Rusiya və İranı qane etməyən maraqlar var. Amma Ermənistan Qərbdən aldığı dəstək sayəsində hər iki ölkənin təzyiqlərinə duruş gətirməlidir. Eyni zamanda, cənub qonşumuz bilməlidir ki, onun sərhədlərinə kim düşmən qüvvələri yaxınlaşdırır - biz, yoxsa erməni tərəfi?! Bu mənada İranın Azərbaycan siyasətində daha böyük dəyişiklik görmək istərdik. Doğrudur, cənab Pezeşkianın prezidentliyi dövründə əlaqələr normallaşıb. Ancaq mühafizəkar rejimin yanaşmasında heç bir dəyişiklik olmayıb".

Yeri gəlmişkən, erməni jurnalist Marut Vanyan Ermənistanın ən cənub hissəsində, Zəngəzur bölgəsindəki tərk edilmiş Mehri stansiyasındakı relslərin və paslı vaqonların qalıqlarına işarə edir. Bura İranla sərhəddir və "Beynəlxalq Sülh və Rifah üçün Tramp Yolu" (TRIPP) tezliklə oradan keçəcək. Bu xüsusi tranzit zonası Ermənistanın suverenliyinə tam hörmət etməklə yanaşı, Azərbaycandan Naxçıvan bölgəsinə çıxış imkanı verəcək.

Ən azından, Donald Trampın Azərbaycan və Ermənistan liderləri ilə imzaladığı müqavilənin xülasəsi belədir. Yolun idarə olunması 99 ilə qədər Amerika şirkətinə veriləcək. Dəmir yolundan əlavə, müqavilə qaz kəməri, neft kəməri və fiber-optik kabelin çəkilməsini də nəzərdə tutur. İndi həm Əliyev, həm də Paşinyan iki ölkə arasında sülhün bərqərar olduğunu və daha müharibə olmayacağını bildirirlər. Lakin hələlik Rusiya sərhədçiləri Ermənistanın İranla sərhədində qalırlar. İranın varlığı Rusiyanın təsirindən daha aydın hiss olunur. Zəngəzur İran üçün əsas ticarət mərkəzidir. İran nömrə nişanlı yük maşınları yollarda hərəkət edir, yanacaqdoldurma məntəqələrində və mağazalarda fars dilində danışılır və iranlı işçilər yerli yolları təmir edirlər. Və heç kim "Tramp marşrutu"nun milyardlarla dollarlıq tikintisi zamanı Amerika, İran və Rusiyanın maraqlarının burada necə bir arada olacağını izah edə bilməz.

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

# II Qaregin gedir - iqtidarın son həmləsi

## Baş katolikos istefaya hazırlaşır; kilsədəki "ilanın başı əzilir" - onun gedişi ermənilərə nə vəd edir?



**Bütün ermənilərin katolikosu II Qaregin erməni kilsəsi ilə bağlı vəziyyəti müzakirə etmək üçün yepiskopların iclasını çağırıb. Bu barədə erməni mediası məlumat yayıb. İclasın 10-12 dekabrda keçiriləcəyi gözlənilir. Böyük ehtimalla, iclasda II Qareginin istefa məsələsinə də baxılacaq. Nəyi ki, Baş nazir Nikol Paşinyan neçə vaxtdır ondan tələb edir. Baş katolikos kilsənin qanunlarını pozmaqda ittiham edilir. Həmçinin onun ən yaxın adamlarından bir neçəsi hakimiyyəti zorla ələ keçirmək cəhdlərinə görə ötən yay həbs edilib. II Qaregini əvəzləyəcək namizədlərin adları da açıqlanıb.**

Bu arada Paşinyan kəskin açıqlama ilə çıxış edərək bildirib ki, o, "özünə tabe olacaq" deyil, "xarici xüsusi xidmət orqanlarının baş leytenantına tabe olmayan" katolikos istəyir. "Erməni Kilsəsinə Ktriç Nersisyanın (II Qaregin) mövcudluğundan daha böyük zərər verən heç nə yoxdur". Bu da Baş nazirin sözləridir. "Mənim onunla çoxsaylı görüşlərim olub və bu söhbətlərdən təəssüratlar məni inandırır ki, onun müqəddəs Eçmiədzində olması kilsəyə dağıdıcı zərər vurur", - Paşinyan qeyd edib.

Bəs baş katolikosun dəyişdirilməsi ölkə, cəmiyyət və müxalifət üçün nə demək olacaq? Paşinyanın mənəvi qələbəsi qarşıdakı parlament seçkilərində qüvvələr nisbətinə necə təsir edə bilər?

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə hesab edir ki, Eçmiədzin kimi yerdə seçkiləri Paşinyanın partiyası udursa, kilsə və revanşist müxalifət üzərində qələbənin ilk müjdəsi sayıla bilər. Hüquq müdafiəçisi Ermənistanda vətəndaş cəmiyyətinin Qərbdən ciddi dəstək aldığını, son olaraq Avropa İttifaqının 15 milyon avro ayırdığını qeyd edərək antirus ovqatının daha da gücləndiyini müşahidə edir. Onun fikrincə, bu propoqanda maşını haqlı olaraq Rusiya əleyhinə iş aparır və ictimai rəyi praqmatik düşünməyə çağırır: "Qərbdən donorluğu sayəsində Paşinyanın komandası ciddi şəkildə təbliğat aparır ki, inkişaf avrointeqrasiyadır. Bunun üçün Rusiyanın təsir zonasından uzaqlaşmaq lazımdır. Təsir dairəsini zəiflətmək isə kilsədə agentura şəbəkəsini çökdürməkdir. Paşinyan müxalifəti taqətdən salıb, kilsə ilə sonuncu savaşa girib. Buna qədər keşiş Baqrat və yepiskopları həbs edib. Ancaq ilanın başı qana susamış II Qaregindir. Paşinyan onu ifşa və rüsvay edib, qalır istefa verməsi. Bunu da etsə, revanşizmin beli qırılacaq".

Ç.Qənizadə daha sonra Paşinyanın digər addımları rahat atacağını gözləyir: "Bu qüvvələrin müqaviməti sındırıldıqdan sonra seçkidə qələbə və referendum keçirmək asan olacaq. Paşinyan sülh yolunda əngəl olam daşları ayağının altından təmizləyir. Bu prosesdə ən çətini kilsə idi. Çünki ermənilər kilsə xalqıdır və dövlət, oradan idarə olunub. Kilsəni dini məbəd yox, intriqa yuvası, siyasi mərkəzə çevirmişdilər. Paşinyan ən riskli və təhlükəli mərhələ olan kilsədə "təmizləmə" başlayıb. Əgər ermənilər bundan qəzəblənib onu devirməyibsə, nəticəsi indidən məlumdur. Deməli, xalq müharibədən dərhal sonra növbədənkənar seçkilərdə Paşinyanı dəstəkləyibsə, bu dəfə də ona səs verəcək. Çünki ölkəsinə sülh vəd edir".

Milli Cəbhə Partiyasının sədr müavini Ehtiram Mehdiyev kilsənin çirkabdan təmizlənməsini qaçılmaz hesab edir və bunu Ermənistan sülh əleyhdarlarına vurulacaq ən böyük zərbə sayır. Onun sözlərinə görə, illərlə ermənilərin beynini zəhərləyən bu qüvvələr xalqı "artsax", "dənizdən dənizə Ermənistan" kimi utopik ideyalarla aldadıblar: "Paşinyan isə real Ermənistan qurmağa çağırır və Qaregin kimi fırıldaqçıların kilsədən uzaqlaşdırılmasını tələb edir. Bu adamlar rusların əlaltısıdırlar və verilən tapşırıqları icra edirlər. Bundan əlavə, onların beyni zəhərlidir deyə xalqa da bu mənfur fikirləri ötürürlər. Paşinyan isə rus agenturasının əl-ayağını yığışdırır. Kilsəyə qədər ayaq açan bu şəbəkəni diz çökdürməyi hədəfləyib. Halbuki kilsə xalqı sülhə, əmin-amanlığa dəvət etməlidir. Qaregin kimilər isə erməni ordusunu qana, müharibəyə həvəsləndirir. Onların məhv edilməsi lazımdır ki, Ermənistan müasir inkişaf dövrünə qədəm qoysun. Sadəcə, ermənilər kilsə xalqı olduğu üçün prosesin özü ağrılıdır. Amma Paşinyan bunun da öhdəsindən gəlir və cəmiyyətə həqiqətləri göstərir".

Partiya rəsmisi hesab edir ki, burada sosial-iqtisadi vəziyyət də rol oynayır: "Paşinyan dönəmində əhalinin rifah səviyyəsi əvvəlki hakimiyyətlərin vaxtından fərqlənir. Ermənilər görür ki, revanşist - daşnakçı qüvvələr, kilsə ölkəni uçuruma, yoxsulluğa, korrupsiyaya, münaqişəyə aparır. Ermənilər artıq sakit həyatını yaşamaq istəyir. İkinci müharibədə minlərlə erməni hərbçinin meyiti ailəsinə təhvil verilib və Ordumuzun qüdrəti onlara görk olub. Ermənilər şahiddirlər ki, Azərbaycan Ordusu hansı səviyyədə inkişaf edib, hansı müasir silahlar alırıq, müttəfiqlərimiz hansı dövlətlərdir. İndi ağlı başında olan cəmiyyət gülləni öz ayağına sıxarmı? Ona görə qareginlər, köçəryanlar siyasi-ictimai səhnədən rədd olub silinməlidirlər".

Qeyd edək ki, əsl adı Ktriç Nersisyan olan II Qaregin bütün ermənilərin 132-ci katolikosudur. O, 27 oktyabr 1999-cu ildən Erməni Apostol Kilsəsinə rəhbərlik edir. Ktriç Nersisyan 21 avqust 1951-ci ildə Ermənistanın Eçmiədzin rayonunun Voskehat kəndində anadan olub. 1965-ci ildə Eçmiədzin İlahiyyat Seminariyasına daxil olub, 1971-ci ildə oranı bitirib, daha sonra həmin seminariyada müəllim işləyib. 1970-ci ildə diakon (kahinliyin ilk, ən aşağı səviyyəsində kilsədə xidmət edən şəxs), 1972-ci ildə isə keşiş təyin edilib. Daha sonra katolikos I Vazgenin əmri ilə teoloji təhsilini davam etdirmək üçün Avstriyanın paytaxtı Vyanaya göndərilib. Nersisyan dini təhsilini 1975-ci ildə Almaniyanın Bonn Universitetində davam etdirib.

1979-cu ildə Eçmiədzinə qayıdıb, daha sonra Zaqorsk şəhərinə gedib və orada Rus Pravoslav Kilsəsinin Moskva İlahiyyat Akademiyasında aspirantura təhsili alıb. Nersisyan 1980-ci ilin martından 1999-cu il iyulun 4-nə kimi bütün ermənilərin katolikosu I Vazgenin baş vikarı (dini vəzifə) olub və arxiyepiskop rütbəsinə yüksəlib.

27 oktyabr 1999-cu ildə katolikos I Qareginin ölümündən sonra Erməni Apostol Kilsəsinin Milli Kilsə Şurası (ali idarəetmə orqanı) arxiyepiskop Qaregin Nersisyanı bütün ermənilərin 132-ci patriarxı və katolikosu seçib. Bundan sonra o, II Qaregin adlandırılıb. II Qaregin dövründə kilsə idarəçiliyinin mərkəzləşdirilməsinin əsas aləti bütün dünyada erməni kilsəsi üçün vahid nizamnamənin qəbul edilməsi olub ki, bu da dini icmalar arasında mübahisə və nifaq yaradıb.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**



# "Ruben Vardanyan işi" - hər ifadə ayrılıqda bir cinayət dosyesidir

**Dekabrın 5-də Bakı Hərbi Məhkəməsində Ermənistan vətəndaşı Ruben Vardanyanın çoxcildli ciayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Proses 30 il ərzində Azərbaycan xalqına qarşı törədilmiş sülh və insanlıq əleyhinə cinayətlərin, müharibə cinayətlərinin və terror aktlarının hüquqi qiymət aldığı tarixi məqamdır. Hakim Zeynal Ağayevin sədrliyi, hakimlər Anar Rzayev və Camal Ramazanovun iştirakı ilə keçirilən açıq məhkəmə iclasında təqsirləndirilən Ruben Vardanyan bildiyi rus dili üzrə tərcüməçi və dövlət hesabına müdafiə ilə təmin edilib. Hazırda prosesdə Qarabağda törədilən ağır müharibə cinayətləri üzrə şahidlər, zərərçəkmiş şəxslər ifadə verirlər. Ötən prosesdə zərərçəkmişlər ifadə verib.

Zərərçəkmiş Elşən Babayev dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavab verərkən Ağdərə ərazisində tank əleyhinə mərminin partlaması ilə əsgərlər Tural Əmirov və Elçin Salmanovun həlak olduğunu, özünün və Yusif Həsənovun isə yaralandığını bildirib. Zərərçəkmiş Elvin Məmmədov isə Xocalının Sərdarkənd kəndi istiqamətində minaatan mərmisinin partlaması ilə aldığı xəsarətlərdən danışdı. O, qeyd edib ki, həmin vaxt ərazidə düşmən minaatanlardan, snayperlərdən və digər silahlardan fasiləsiz atəş açıb. Xalid Şükürlü Malıbəyli kəndində minaatan mərmisinin partlaması nəticəsində xəsarət aldığını, Sadiq Məmmədov və Nicat Əhmədzadənin də eyni hadisədə yaralandığını açıqlayıb. Taleh Hümbətzadə Xocavəndin Yenikənd kəndində Ermənistan ordusunun qalıqlarının atdığı artilleriya mərmisinin yaxınlıqda partlaması nəticəsində yaralandığını, Cavid Şavqatlının da eyni şəkildə xəsarət aldığını bildirib. Fazil Əmirli Malıbəyli istiqamətində düşmənin açdığı atəşlə yaralandığını, Seyfəddin Cabbarov və Kamran Nəcəfovun da həmin hücumun qurbanı olduğunu deyib. İlqar Qasımov isə Xocalı istiqamətində düşmən tərəfindən basdırılmış mina partlayışı nəticəsində özünün və Hüseyn Hüseynovun yaralandığını vurğulayıb.

Məhkəmədə zərərçəkmişlərin səsləndirdiyi bu ifadələr bir daha təsdiqləyir ki, müttəhim Ruben Vardanyanın rəhbərlik etdiyi, maliyyələşdirdiyi və koordinasiya etdiyi qanunsuz silahlı dəstələr uzun illər Azərbaycan mülki əhalisinə və hərbçilərinə qarşı sistemli şəkildə cinayətlər törədiblər. Müttəhim Ruben Vardanyan Azərbaycan Cinayət Məcəlləsinin ən ağır maddələri müharibə cinayətləri, terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, deportasiya, işgəncə, qanunsuz silahlı birliklərin yaradılması, qəsdən adam öldürmə və daha onlarca ağır maddə ilə ittiham olunur. Bu ittihamların hər biri arxasında qətllər, yaralanmalar, dağıdılmış kəndlər, azadlığından məhrum edilmiş, ömürlük şikayət edilmiş insanlar, işgəncə qurbanları var. Ruben Vardanyana verilmiş ittihamlar faktiki olaraq beynəlxalq tribunal səviyyəsindədir. Hazırda məhkəmə iclası cinayət işinin materiallarının və digər sübutların tədqiqi ilə davam edir. İclasda zərərçəkmişlərin ifadələri, ekspert rəyləri, sənəd və sübutlar üzrə araşdırmaların davam etdirilməsi gözlənilir.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 222 (8832) 6 dekabr 2025

# Sosial şəbəkələrdən pul çıxaranlar - Onlara nəzarət varmı?

**Məlumdur ki, "Instagram", "YouTube", "TikTok", "Facebook" və "Twitter" kimi sosial media platformaları çox istifadə edilir. Son zamanlar dövrün tələbinə uyğun olaraq, xüsusilə iş adamlarının və məşhur simaların daha çox yeni sosial media platformalarından biri olan "TikTok"a üz tutduqları müşahidə olunur.**

Artıq bu platformalar milyonlarla insan üçün qazanc yerinə çevrilib, onlar öz səhifələri, kanalları, bloqları ilə böyük həcmdə gəlir əldə etməyə nail olurlar. Son illərdə sosial şəbəkələrdən böyük məbləğdə gəlir əldə edən şəxslərin vergi ödəməsi məsələsi bütün dünyada, həmçinin Azərbaycanda ciddi müzakirə mövzusuna çevrilib.

Əksər inkişaf etmiş və etməkdə olan ölkələrdə sosial şəbəkələrin sahibi olan şirkətlər yerli hökumətlərlə işbirliyi quraraq fəaliyyət göstərirlər. Onların ümumi razılaşma əsasında fəaliyyətindən hansısa ölkənin vətəndaşları, şirkətləri əldə etdikləri gəlirdən ölkə qanunvericiliyinə uyğun vergi ödəyirlər. Bunun üçün zəruri qanuni baza, hüquqi çərçivə yaradılıb.




Azərbaycanda hansı sosial platformalardan gəlir əldə etmək mümkündür? Sosial media üzrə mütəxəssis Məhəmməd Türkmənin dediyinə görə, İnstagram istisna olmaqla, açıq sosial platformaların hamısında gəlir var: "Youtube, Facebook-Meta, X, Tik-Tok - hamısında gəlir var. Azərbaycanın istifadəçi tərkibini nəzərə alanda vəziyyət dəyişir. Tik-Tok baxışa görə gəliri istifadəçiləri stimullaşdırmaq üçün verir. Çünki onsuz da canlı yayım açaraq izləyici toplayan şəxslər göndərilən hədiyyələrdən bir çox hallarda külli miqdarda gəlir əldə edirlər. Buna görə də Tik-Tok-da baxışa görə gəlir sırf digər sosial şəbəkələrlə rəqabətə davam gətirmək üçün tətbiq olunur. Çünki əksər sosial şəbəkələrdə baxışa görə gəlir tətbiq olunur, bu, istifadəçiləri daha çox izləyici cəlb etməyə sövq edir. Youtube-nin qısa videolar çıxarmasının əsas səbəbi də budur. Belə yüksək rəqabət şəraitində saniyələrdən dəqiqələrə qədər müddəti əhatə edən qısa videolar böyük baxış toplamaqla yüksək gəlir gətirə bilir. Lakin Tik-Tok baxışa görə gəliri yalnız 7-8 ölkədə tətbiq edir, Azərbaycan ora daxil deyil. Həmin 7-8 ölkədə müəyyən tələblərə cavab verən istifadəçilərə baxış sayına görə ödəniş edilir. Facebook-da da bir neçə gəlir əldə etmək üsulu var. Bunlardan biri videolara reklam yerləşdirilməsidir. Youtube-də olduğu kimi videolara reklam yerləşdirib gəlir əldə etmək mümkündür. Bu gəlir kanalı da Azərbaycan üçün tam açıq deyil. Doğrudur, bank hesabı açıb onu Facebook hesabına bağlamaq olur, lakin bunu etmək üçün də ciddi tələblərə əməl etmək lazımdır. Məsələn, istifadəçi-kanal sahibi müəllif hüquqlarını pozmamalı, Meta-dan hər hansı cəza almamış olmalıdır. Bu şərtlərə uyğun olan istifadəçilər Azərbaycanda hələlik belə reklam gəlirlərini götürə bilmirlər. Meta belə imkanı hələlik ölkəmizə yaratmayıb. Yaxın müddətdə Azərbaycan da daxil olmaqla, 30-dan yuxarı ölkədə belə gəlirin çıxarılması imkanının yaradılacağı gözlənilir.

Facebook-da Avropada tətbiq olunan bir gəlir növü də hansısa posta ulduz göndərilməsidir. Azərbaycanda bu imkan yaradılmayıb hələlik. Kiminsə postu daha çox ulduz alırsa, ondan müəyyən həcmdə gəlir əldə edir.

İnstagram heç bir gəlir vermir, söhbət, əlbəttə, kimdənsə pul alıb onun məhsulunu təbliğ etməkdən getmir. Platformanın özü istifadəçilərə hər hansı gəlir vermir".

Mütəxəssisin dediyinə görə, Azərbaycanda ən çox gəlir götürülə bilən platformalardan biri Youtube-dir: "Burada müəyyən abunəçi sayını keçdikdən, digər bir sıra tələblərə əməl etdikdən sonra gəlir kanalı aktivləşir. Burada gəlir 1000 baxış üzərindən götürülür. Burada da gəlirlər fərqlidir: məsələn, hər min baxışa görə Azərbaycanda 5 qəpik verilirsə, Türkiyədə bu, 7 qəpik, Almaniyada 20 qəpik təşkil edir. Burada əsas rol ölkələr üzrə istifadəçi sayındadır. Digər parametrlər də nəzərə alınır, lakin əsası istifadəçi sayı - auditoriyadır. Azərbaycanın Youtube-də qeydiyyatdan keçmiş 2 milyona yaxın istifadəçisi var. Bir video yerləşdirsən, maksimum bu 2 milyona çatacaq, ancaq bu da real deyil. Özü də videonun müddəti 10 dəqiqəni keçməlidir ki, reklam sayı və gəlir çox olsun. Qısa videolarda baxış sayı çox olsa da, 3 dəqiqəyə qədər müddəti əhatə etdiyi üçün reklam yerləşdirmək mümkün olmadığına görə gəlir də az olur.

X-ə gəlincə, burada yazılan statuslara verilən reaksiya -yazılan rəylər, re-paylaşımlara görə gəlir əldə etmək mümkündür.

Telegram-da da gəlir əldə etmək imkanı var. Orada ödəniş üsulları var: kanal açıb, müəyyən məbləğ ödəyib, paylaşımlar edirsiniz, ona olan baxışlardan gəlir gəlir. Belə paylaşımlara adətən ödəniş etmədən baxmaq mümkün deyil, kimsə baxmaq istəyirsə, müəyyən məbləğ ödəyib baxır. Həmin paylaşımlardakı foto və videoları endirmək mümkün olmur".

Qeyd edək ki, Azərbaycanın qanunvericiliyinə görə, bütün reklamlardan gəlir vergisi tutulduğu kimi, "Youtube"dan da tutulur. Kanal aktivləşəndən sonra müəyyən məbləğ kanalda olan hesaba gəlir. O hesabdan vəsaiti çıxartmaq üçün ilk növbədə vergi qeydiyyatına düşmək, VÖEN açdırmaq lazımdır. VÖEN hesabına bağlı bank hesabı da açdırmaq və qanunvericilikdə reklamdan əldə olunan gəlirə nəzərdə tutulan vergini ödəməklə qalan pulunu çıxara bilirsən. Bank hesabı açmadan, vergi qeydiyyatından keçmədən pul əldə etmək mümkün deyil.

Mütəxəssislər bildirirlər ki, Azərbaycanda "Youtube" platformasına reklam verənlər azdır. Ölkədə Azərbaycan kontenti olan kanallar üçün reklamdan gəlir qazanmaq çox çətindir. Mütəxəssislər bunun səbəbini rəqabətin çox zəif olmasında görürlər. Buna səbəb isə reklam bazarının həcminin aşağı olmasıdır. Sağlam rəqabət mühiti olmadığına görə reklamla müştəri cəlb etmək imkanları da aşağıdır. İnkişaf etmiş ölkələrdə uğurlu reklam kampaniyası şirkətlər üçün böyük gəlirlər təmin edir. Azərbaycanda belə imkan çox məhduddur. Buna görə də şirkətlər sosial platformalarda, o cümlədən Youtube-da reklam yerləşdirməkdə maraqlı deyillər. Bu sahədə Azərbaycan istifadəçiləri də xarici şirkətlərin reklamlarına möhtac qalırlar.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən verilən məlumata görə, Vergi Məcəlləsinin 101.3-cü maddəsinə əsasən, sosial platformadan gəlir əldə edən şəxslər hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs hesab olunurlar. Onların vergiyə cəlb olunan gəlirlərindən 20 faiz dərəcəsi ilə vergi tutulur. Vergi Məcəlləsinin 102.1.30-cu maddəsinə əsasən, müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan mikro sahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirinin 75 faizinə güzəşt tətbiq edilir. Müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı təqvim ili ərzində muzdlu işçilərin sayının cəmlənərək 12-yə bölünməsi yolu ilə müəyyən edilir. Vergi ödəyicisi tərəfindən əmtəəsiz əməliyyatlar aparıldığı halda, bu maddə ilə müəyyən edilmiş vergi güzəşti əmtəəsiz əməliyyatlardan yaranan gəlirlərə münasibətdə tətbiq edilmir.

Azərbaycanda son illərdə sosial platformalardan daha çox gəlir əldə edənlər bloqerlər, influencerlər hesab olunur. Onlar fərdi qaydada yaratdıqları bloq və ya səhifəyə çoxlu abunəçi sayı toplayır, daha sonra müxtəlif məhsulların, turizm obyektlərinin, istirahət məkanlarının və sair reklamını öz səhifəsində yerləşdirməklə qazanc əldə edirlər. Bundan başqa, belə insanlar özləri hansısa obyektə gedir, xidmətdən istifadə edərək onu lentə alıb səhifəsində yerləşdirir, yaxud hansısa mövzuda müzakirə açaraq, bundan da gəlir əldə edirlər.

İndiyədək onların belə fəaliyyətdən gəlirləri vergiyə cəlb olunmurdu. Lakin İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin təşəbbüsü ilə bu ilin iyununda Milli Məclisdə "Reklam fəaliyyəti haqqında" qanuna dəyişikliklər edilib.

Avqustda Prezident tərəfindən təsdiqlənən dəyişikliklərə əsasən "rəqəmsal platforma təsirçisi" anlayışı qanuna daxil edilib. Bu, blogerlik və influenserlik fəaliyyətini əks etdirir. Dəyişiklikdə nəzərdə tutulur ki, bloger və ya influencer xidmət göstərdiyi şirkətlə ciddi müqavilə şərtləri ilə çalışmalıdır. Məsələn, bir turizm, yaxud istirahət məkanına gedib istirahət edərək oradan video hazırlayıb səhifəsində təbliğ edən bloger bunu müqavilə əsasında rəsmiləşdirib, vergi ödəməlidir. Müqavilədə onun həmin məkandakı istirahətinin xərci reklam haqqı kimi hesablanaraq, müvafiq verginin ödənməsi təmin olunmalıdır.

Bu fəaliyyət növü ilə məşğul olanlar hər hansı bir məhsulu və ya xidmət sahəsini reklam edirlərsə, bu reklamdan əldə etdikləri gəlirlər üzrə gəlir vergisi öhdəliyi daşıyırlar. Məhsulun reklam və ya tövsiyə xarakterli olması bloger və influenserin bu fəaliyyət üzrə davamiyyətinə görə təhlil edilə bilər.

Qanunun tələbinə əsasən sosial media üzərindən gəlir əldə edən fiziki şəxslər vergi orqanlarında uçota alınmaqla VÖEN əldə etməli, fəaliyyəti təsdiqedici sənədlər əsasında rəsmiləşdirməli və əldə olunan gəlirlər üzrə vergi orqanına bəyannamə təqdim etməlidirlər.

Onu da qeyd edək ki, bütün dünyada sosial şəbəkədən qazanc əldə edənlərin öz gəlirlərini tam həcmdə vergiyə cəlb etmələri problem hesab olunur. Əksər ölkələrdə bu, faktiki olaraq, şəxslərin vicdanına bağlıdır - məsuliyyətli şəxslər öz gəlirlərinin tamamını ağardır və müvafiq vergiləri ödəyirlər. Lakin bunu etməyənlər edənlərdən daha çoxdur və indiyədək belə şəxslər üzərində effektiv nəzarət mexanizmi qurmağa nail olan ölkə yoxdur.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 222 (8832) 6 dekabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

**Azərbaycanda ilk dəfə olaraq yeni ata olanlara ödənişli məzuniyyət hüququ verilir. Belə ki, Əmək Məcəlləsinə edilən dəyişikliklə uşağın doğulması ilə bağlı kişilərə tibb müəssisəsinin arayışı əsasında cəmi 14 gün ödənişli məzuniyyət təqdim olunur.**

# "Kişi evdə uşaq saxlamaz" dövrü bitir

## 14 günlük məzuniyyət nələri dəyişəcək? Novella Cəfəroğlu: "Yeni doğulan körpənin yanında həm ananın, həm də atanın olması..."

Mütəxəssislər bu qərarı "zamanın tələb etdiyi vacib sosial islahat" kimi qiymətləndirir. Artıq müasir ailə modelində uşağın dünyaya gəlməsi yalnız ananın deyil, hər iki valideynin ortaq məsuliyyətidir. Kişinin evdə qalması nəinki körpə ilə emosional bağ yaradır, həm də ananın doğuşdan sonrakı ağır bərpa dövründə böyük psixoloji və fiziki dəstək rolunu oynayır.

Beynəlxalq praktikada atalıq məzuniyyətinin müddəti müxtəlifdir. Məsələn, bu müddət İspaniyada 16 həftə, Litvada 30 gün, Kolumbiyada 14 iş günü (təqribən 2 həftə), Çilidə 1 həftə (5 iş günü), Belçikada 4 həftə (20 iş günü), Avstraliya 2 həftədir. Qardaş Türkiyədə isə bu müddət xüsusi sektor işçiləri üçün 5 gün, dövlət qulluğundakı işçilər üçün isə 10 gündür.

Araşdırmalar onu göstərir ki, Türkiyədə bu məzuniyyətin tətbiqinin ilk illərində kişilərin yalnız 10-15 faizi ondan yararlanırdı. Lakin zamanla göstəricilər dəyişməyə başlayıb. Bununla belə, 3235 atadan soruşulub və onların 56,3 faizi bu məzuniyyət haqqını müxtəlif səbəblərdən istifadə etmədiyini deyib. Həmin səbəblərdən biri də kişi-ana rolu ilə bağlı sosial təsəvvürlərdir.

Bəs Azərbaycan kişisi atalıq məzuniyyətinə çıxacaqmı? Kağız üzərində 14 günlük ödənişli məzuniyyət var, bəs reallıqda necə olacaq?

Cəmiyyətdə çoxları hesab edir ki, kişilərin əhəmiyyətli qismi hələ də bu məzuniyyətə çıxmağa tərəddüd edəcək. Buna səbəb olan köklü mentalitet faktorları isə dəyişməkdə bir qədər gecikir. "Kişi evdə uşaq saxlamaz" kimi köhnəlmiş təsəvvürlər, atalıq məzuniyyətinin "qeyri-ciddi" görünməsi qorxusu, şirkət rəhbərlərinin buna necə yanaşacağı barədə narahatlıq, kişinin evdə qalmasının ailə büdcəsinə təsir edəcəyi düşüncəsi və sairə.



Mövzu ilə bağlı hüquq müdafiəçisi, Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu "Yeni Müsavat"a danışıb:

"Mənim nəvəm Amerikada yaşayır. Bir neçə ay bundan əvvəl nəvəmin övladı dünyaya gəldi. Orada dövlətin yanaşması çox fərqlidir: həm anaya, həm də ataya tam 3 aylıq ödənişli məzuniyyət verildi ki, yeni doğulan körpə ilə birlikdə vaxt keçirsinlər, birgə qayğı göstərsinlər, ailə həyatının ilk və ən həssas dövründə bir-birinə dayaq olsunlar. Bu, yalnız sosial siyasət deyil, həm də ailə institutunun möhkəmlənməsi üçün düşünülmüş çox incə və məqsədyönlü bir addımdır.

Dövlət anlayır ki, yeni doğulan körpənin həm ana, həm də ata ilə ilkin təması onun psixoloji inkişafı, emosional bağları və gələcək davranış modelləri üçün həlledici rol oynayır. Məhz buna görə orada xəstəxanalarda çox maraqlı, psixoloqlar tərəfindən sübut edilmiş bir praktika da var: uşaq doğulan kimi təxminən 15-20 dəqiqə ata sinəsinə qoyulur, daha sonra anaya verilir. Bu, atanın körpə ilə ilk təmasını gücləndirir, ata-bala arasında emosional bağın formalaşmasını sürətləndirir və ailənin tamamlayıcı rolunu daha da möhkəmləndirir. Mən bunu şəxsən gördüm və heyran qaldım. Bu, ata-övlad münasibətini qurmaq üçün möhtəşəm bir üsuldur. Yeni doğulan körpənin yanında həm ananın, həm də atanın olması uşağın gələcək sağlam inkişafı üçün çox vacibdir".

Novella Cəfəroğlu qeyd edib ki, Azərbaycanda da atalıq məzuniyyətinin ödənişli şəkildə tətbiqi ilə bağlı verilən qərar cəmiyyət tərəfindən çox pozitiv qarşılanmalıdır: "Mən bu addımı ürəkdən alqışlayıram. Çünki bəzən gənc ailələrin ata-anaları uzaqda olur, onlara kömək edəcək heç kim tapılmır. Bu dövrdə ata da ana qədər vacibdir. Ailənin ilk günlərdən birlikdə olması, uşağın qayğı və sevgi içində böyüməsi üçün hər iki valideynin yanında olması çox önəmlidir. Məhz belə addımlar bir tərəfdən ailə institutunu möhkəmləndirir, digər tərəfdən gənc ailələrin psixoloji yükünü azaldır, həm də kişilərin ailə həyatında daha fəal iştirakını təmin edir. Bu, cəmiyyətin də sağlamlaşmasına xidmət edir.

Azərbaycan kişiləri bu məzuniyyətdən niyə yararlanmasınlar? Ola bilər ki, bəzi kişilər əvvəlcə tərəddüd etsin, amma bu normaldır. Çünki uzun illər ənənəvi patriarxal model üstünlük təşkil edib. Lakin axı bu, ailə, uşağın gələcəyi üçündür. Gənc nəsil bu məsələlərə daha açıqdır. Onlar xarici ölkələrdə təhsil alırlar, geniş düşünürlər, kreativdirlər. Sosial şəbəkələrdən də göründüyü kimi, yeni nəsli fərqli edən cəhətlər var. Məsələn, indiki ataların qız övladlarına münasibəti dəyişib. İndi atalar qızlarının saçını hörür, onlarla oyun oynayırlar, məktəb və bağça həyatında daha aktiv iştirak edirlər. Bu, artıq yeni dövrün yeni ailə mədəniyyətidir. İstəməyən bu məzuniyyətə çıxmasın. Amma mən əminəm ki, gənc nəslin 90 faizindən çoxu bu məzuniyyətdən istifadə edəcək. Çünki onlar ailəyə daha həssas yanaşırlar və uşağın həyatında ilk gündən iştirak etməyin necə dəyərli olduğunu yaxşı anlayırlar".

Sosioloq Üzeyir Şəfiyev də qeyd edib ki, yeni nəsil bu imkandan istifadə edəcək: "Əlbəttə ki, bəzi stereotip yanaşmalar yenə qalacaq. Əvvəllər belə məzuniyyətlərə, ümumiyyətlə, kişilərin evdə qalmasına yaxşı yanaşılmırdı. Çünki biz kişi mərkəzli bir cəmiyyətdən gəlirik. Lakin indi insanların düşüncəsi dəyişib, yeni nəsil daha fərqli baxışa malikdir. Əgər söhbət məhz gənc nəsildən gedirsə, çox böyük ehtimalla onlar bu imkandan aktiv şəkildə istifadə edəcəklər".

## Qəbulla bağlı qabiliyyət imtahanlarında dəyişiklik edildi



**2026/2027-ci tədris ilindən etibarən Təsviri sənət istiqamətinin 14-cü komissiyasına aid dizayn ixtisasına qəbul olmaq üçün keçirilən qabiliyyət imtahanlarının nəticəsi balla deyil, məqbulla qiymətləndiriləcək.**

Bu barədə DİM məlumat yayıb.

Qabiliyyət imtahanından məqbul almaq üçün abituriyentin (subbakalavrın) imtahan nəticəsi 10 ballıq şkala üzrə 6 bal və daha yuxarı olmalıdır. İxtisas üzrə müsabiqə abituriyentin V ixtisas qrupu üzrə qəbul (cari ilin məzunları üçün buraxılış) imtahanında topladığı ümumi test balı əsasında aparılacaq.

Öz istəyindən asılı olaraq, subbakalavrlar qəbul imtahanlarının I mərhələsində iştirak etməklə topladığı bal ilə abituriyent kimi ümumi qaydada, həm də subbakalavr kimi qəbul imtahanında iştirak etmədən yalnız qabiliyyət imtahanı verməklə orta ixtisas təhsili səviyyəsində bitirdiyi ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə müsabiqədə iştirak edə bilər.

Subbakalavrlar orta ixtisas təhsili pilləsində aldığı təhsilə uyğun bakalavr ixtisası haqqında məlumatları "Abituriyent" jurnalının xüsusi buraxılışında təqdim olunan "Müvafiq ixtisaslar üzrə subbakalavr dərəcəsini almış şəxslərin ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) qəbulu ilə bağlı ixtisas uyğunluğu cədvəli"ndən öyrənə bilərlər.

Təsviri sənət istiqamətinin ali və orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları haqqında bütün məlumatlar "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Təsviri sənət/Memarlıq" adlı vəsaitdə nəşr ediləcək. Qabiliyyət imtahanlarına hazırlaşmaq və ətraflı məlumat almaq üçün DİM-in nəşrlərini və saytını izləmək tövsiyə olunur.

## Bakıda 21 yaşlı hamilənin ölüm səbəbi bilindi



**"Dekabrın 2-də saat 22:50-də 2004-cü il təvəllüdlü, 23-24 həftəlik hamilə qadın Respublika Klinik Xəstəxanasının Təcili tibbi yardım şöbəsinə hospitalizasiya olunub".**

Bu barədə Oxu.az-ın sorğusuna cavab olaraq Respublika Klinik Xəstəxanasından bildirilib.

Məlumatda qeyd olunub ki, pasiyent xəstəxanaya daxil olarkən bir neçə gündür davam edən öskürəkdən və bədən hərarətinin yüksəlməsindən şikayətlənib: "Tənəffüs sistemi xəstəliyi, ağciyər çatışmazlığı, bakterial infeksiya, pnevmoniya diaqnozları təyin edilən şəxs klinik laborator instrumental müayinələrdən keçirilib, zəruri tibbi xidmətlər göstərilib. Dekabrın 3-də saat 01:30-da xəstədə təngnəfəslik, ardından boğulma başlayıb. Reanimatoloq baxışından sonra müvafiq təyinatlar verilən pasiyentin aparılan reanimasiya tədbirlərinə baxmayaraq, 06:10-da bioloji ölümü qeydə alınıb. Meyit təşrih olunması üçün Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin aidiyyəti şöbəsinə təhvil verilib".

Qeyd edək ki, hadisə doğuş zamanı baş verməyib və döl ananın bətnində ölüb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY



# “S nəsli”nin ehkamı - “Kişinin kişi işi var...”

Samir SARI

**S nəsli başqadır, düşüncə etibarilə X, Y və Z nəslindən çox fərqlənir.**

“S nəsli” deyərkən, siqma-filan nəsli nəzərdə tutulmur, “sovet nəsli”ndən bəhs edilir - yəni sovet dövründə dünyaya gəlmiş, ən azı 10-15 il o dönəmdə yaşamış insanlar.

“S nəsli” mühafizəkardır, özünün tabuları, ehkamları, düşüncə tərzi, bəzən də kəskin təsbitləri var. Demək olmaz ki, “S nəsli” çox vaxt haqlıdır və ya haqsızdır, gerçək budur ki, tükənməkdə olan nəsildir və öz mənfi-müsbətləri var.

Məsələn, dünən əməkdaşımız parkda sorğu keçirib, müxtəlif yaşlı adamlardan övladı doğulan kişilərin 14 günlük ödənişli məzuniyyətə çıxması ideyasına münasibət soruşub, fərqli cavablar alıb. Şərti adını “S nəsli” qoyduğum 50+ yaşlı insanlar deyib ki, bu, düzgün söhbət deyil, mentalitetimizə ziddir, kişinin kişi işi var, qadının qadın işi.

Düzdür, sorğuya fərqli cavab verənlər arasında “olsun, lazımdır, vacibdir” deyənlər də olub. Amma mövzuya tənqidi yanaşanların mövqeyi heyrətamizdir. Sanki kişilər övladları dünyaya gələndə 14 gün evdə, xanımlarının yanında olsalar, onlara kömək etsələr, kişilik əldən gedər.

Yaxşı, bu necə olur, kəhildəyə-kəhildəyə döl kampaniyasında iştirak edəndə yaxşıdır, prosesin meyvəsi dünyaya gələndə zahı qadının, qığıldayan körpənin qulluğunda durmaq yamandır? Böylə ədalət varmı?

Dinəndə də “mentalitet” deyirlər. Mentalitet odur ki, səhər evdən çıx, axşam gəl, pultu götür, uzan divanda, səfeh-səfeh verilişlərə, ya da furbola bax, vəssalam? Evin xanımına nəsə bir kömək etmək avtomatik olaraq mentalitetə zidd olur?

Hələ onu da deyirlər ki, “Azərbaycan kişisi atalıq məzuniyyəti götürməz”. Qəti götürməz. Götürməməlidir. Götürsə, biabırçılıq olar. Dünya birliyi nə deyər? O tərəfə çönüb gülər.

Bu nəyə oxşayır? Bu, ona oxşayır ki, Yaponiyada kimsə yeri gəldi, gəlmədi, desin ki, belə yerdə yapon kişisi xarakiri edər. Adətdəndir. Mentalitetdə var axı. Dədələrin irsinə sadiq olmaq lazımdır. Yapon məmur mediada haqsız tənqid olunub? Başqa yol yoxdur, tantosunu (yapon xənçəri) çəkməli, öz qarnına soxmalıdır, yuxarı-aşağı, sağa-sola, al, sənə xarakiri. Qoy onu haqsız tənqid edən jurnalistlər vicdan əzabı çəksinlər.

Nə işdirsə, son dövrlər Yaponiyada xarakiri eləmirlər, mentalitetə dönük çıxıblar. Amma orda da mühafizəkar day-daylar var, telekanallara müsahibə verəndə deyirlər, indiki cavanlar zay olub gedib, dədə-babalarımızın gül kimi adət-ənənələri vardı.

Xəbəriniz varmı ki, İran kimi mühafizəkar ölkədə qadınların paltar sıxıb asmaq adəti yoxdur? Bu işi yalnız kişilər görür. Qadınlar paltarları maşında yuyurlar, sıxıb-asmaq mərhələsi çatanda kişilər səbəti qoltuğuna vurub, dama, eyvana çıxır, işi icra edirlər. Görənlər and içir ki, hər tərəfdə belədir. Hətta paltar sərməyən kişiyə pis baxırlar, Söylü bacı demişkən, ta o kişi çayçıya çıxa bilməz.

Amma bizdə, Allah eləməsin, hansısa kişini paltar sərən yerdə görsünlər. Həyatı qaralar. Adamın salamını dodaqucu alarlar, sayıb dəvətnamə verməzlər, dalınca danışarlar, nə bilim, daha nə edərlər.

Belə baxanda eyni millətdir, mentaliteti-filanı eynidir, amma paltar sıxıb-sərmək məsələsində nə qədər fərqli düşüncələrə malikdirlər.

Təcrübə göstərir ki, köhnə dövrlərin adət-ənənələrini yaşatmaq mümkün, əslində heç düzgün də deyil. Sovet nəslinin dövründə Bakıda avtomobil sürən qadın yox idi, olsa da 1-2 nəfərdən artıq olmazdı. Amma indi minlərlə qadın şəhərin küçələrində telefonla danışa-danışa, mesaj yaza-yaza, makiyaj edə-edə maşın sürür. Mentalitetə qalsa, onlar yola buraxılmamalı idilər. Necə ki bəzi başqa mühafizəkar ölkələrdə qadınlara maşın sürmək yasaqdır.

Ona görə də müasir həyatın tələbləri ilə ayaq uzatmaq lazımdır. İndiki cütlüklər ata-ana, qayınana-qayınata, qardaş-qayın, baldız kimi birinci dərəcəli qohumlardan əlahiddə, muxtar şəkildə yaşayırlar. Övlad dünyaya gətirəndə yanlarında mütləq kimsə olmalı, onlara 7\24 qulluq etməlidir. Bu, ər olmayacaqsa, kim olacaq?

***P.S.*** *Lap axırda dəli şeytan pıçıldayır ki, “S nəsli” də çox döşünə döyməsin, çoxu arvada “komandir” deyirdi.*

**Güney Azərbaycanın tanınmış yazar və tədqiqatçıları (183 imza) Azərbaycan Yazıçılar Birliyinin (AYB) Güney Azərbaycan komissiyasının sədri Sayman Aruzla bağlı bəyanat yayıblar. Bəyanatda S.Aruzun “Güney Azərbaycan şöbəsi” adı ilə həyata keçirdiyi fəaliyyətin ədəbi birliyin inkişafına xidmət etmədiyi, əksinə, həmin qurumu şəxsi təsir dairəsinə yönəldən məhdudlaşdırıcı bir struktura çevirdiyi vurğulanır.**

# Arazın o tayından Aruza etiraz edənlərin arzusu nədir? - Tənqidi naməyə cavab



Sayman Aruz

Bəyanatda həmçinin bildirilir ki, mövcud vəziyyətlə bağlı Güney Azərbaycan ədəbiyyatçıları genişmiqyaslı imza kampaniyasına start verib (Axar.az).

“Azərbaycan ədəbiyyatı heç vaxt yalnız coğrafi xəritələrin çəkdiyi xətlərə sığmayıb; onun dayağı xalqın tarixi yaddaşı, dilimizin bütövlüyü və ortaq mədəni irsin yaratdığı mənəvi vahidlikdir. Son dövrlərdə Sayman Aruzun fəaliyyəti ilə bağlı irəli sürülən narahatlıqlar - ədəbi mühitdə ayrı-seçkiliyin artması, Güney ədəbiyyatının şəxsi nüfuz dairəsinə yönləndirilməsi və yaradıcı mühitdə yaranan məsafələşmə ciddi problem kimi dəyərləndirilir. Biz, bu kampaniyanın iştirakçıları, aşağıdakı mövqeyi bəyan edirik:

- Sayman Aruz Güney Azərbaycan ədəbiyyatının təmsilçisi kimi qəbul edilə bilməz;

- Cənub-Şimal ədəbi birliyi mədəni bütövdür və bölünməz;

- Təmsilçilik iddiası şəxsi ambisiyalarla deyil, Güney ədəbiyyatının tarixi məsuliyyəti və estetik çəkisi ilə müəyyən olunmalıdır;

- Heç bir fərd ədəbiyyatı inzibati sərhədlər və şəxsi qapalı çərçivələr üzrə bölmək səlahiyyətinə malik deyil.

- Cənubun zəngin ədəbi irsi şəxsi maraqlara uyğun dəyişdirilə, təhrif edilə və ya monopoliyaya çevrilə bilməz".

Azərbaycan Yazıçılar Birliyinin (AYB) Güney Azərbaycan komissiyasının sədri Sayman Aruz “Yeni Müsavat”a danışaraq, məsələyə öz mövqeyini bildirib:

“Qeyd etmək istəyirəm ki, bu, Azərbaycanın ədəbiyyatına və ümumən milli-mədəni müstəqilliyinə qarşı yönəlmiş ilk belə kampaniya deyil. Bu cür təxribatlar uzun illərdir ki, eyni mərkəzdən idarə olunan, eyni ideoloji xəttə xidmət edən məqsədli fəaliyyətin tərkib hissəsidir. Hər kəsə də çox yaxşı məlumdur ki, bu proseslərin arxasında hansı qüvvələr, hansı niyyətlər, hansı ziyanlı düşüncə dayanır.

Söhbət gedən imza kampaniyasının heç bir hüquqi əsası yoxdur. Bu kampaniyanı təşkil edənlər guya 183 nəfərin imzasının toplandığını iddia edirlər, lakin bu rəqəmi təsdiqləyən heç bir fakt, heç bir sübut ortaya qoymayıblar. Kimdir bu insanlar? Ümumiyyətlə, bu adlar realdımı, yoxdurmu? Bəlkə, həmin şəxslərin bu kampaniyadan xəbəri belə yoxdur? Mən özüm Cənubi Azərbaycandanam, üç qurultayda Cənubi Azərbaycanla bağlı məruzələr etmişəm, bölgənin mühitini gənclərindən tutmuş ağsaqqallarına qədər çox yaxşı tanıyıram. Onlar da məni yaxşı tanıyırlar. Amma iddia edilən siyahıdakı adamların heç biri ədəbiyyatda tanınan, mövqe sahibi olan simalar deyil. Orada adları keçən 5-10 nəfər üçüncü dərəcəli ədəbiyyat adamları ilə əlaqə saxladım, soruşdum, özləri də etiraf etdilər ki, bu kampaniyadan xəbərləri yoxdur. Deməli, ortada saxtalaşdırılmış, şou xarakterli, ucuz və sifarişli bir kampaniya var.

Bu, təkcə mənim şəxsiyyətimə qarşı yönəlmiş bir kampaniya deyil, bu, Azərbaycan dövlətinə, Azərbaycan ədəbiyyatına və bütövlük ideyasına qarşı aparılan sistemli hücumun növbəti mərhələsidir. Vaxtaşırı İran mərkəzli, panfarsist düşüncəli, molla rejiminin təsiri altında fəaliyyət göstərən qruplar müxtəlif dini təşkilatlar, şəbəkələr və radikal birliklər vasitəsilə Azərbaycana qarşı informasiya və təxribat hücumları təşkil ediblər. Bu gün həmin qrupların bir qismi artıq ifşa edildiyi üçün ədəbiyyatçı maskası taxıb “mədəni fəaliyyət” görüntüsü altında ölkəmizə qarşı hücum etməyə çalışırlar. Mən onların içərisindən iki nəfəri çox yaxşı tanıyıram. Bu adamlar dəfələrlə dini liderə tərifnamələr yazıb qarşılığında qızıl sikkə almış şəxslərdir. İndi isə “ədəbiyyat adamı” libasına bürünüb ədalət dərsi keçməyə çalışırlar.

Cəmiyyət başa düşməlidir ki, bu kampaniya əslində Azərbaycan ədəbiyyatı daxilindəki ədəbi birliyi hədəfə alıb. Əgər doğrudan da bu şəxslərin məqsədi Cənubi Azərbaycanın ədəbiyyatını inkişaf etdirmək, təbliğ etmək idisə, niyə İranda belə bir kampaniya yaradıb molla rejiminə müraciət etmirlər? Niyə ana dilimizin hüquqları ilə bağlı səs qaldırmırlar? Niyə Urmiya gölünün faciəsi ilə bağlı imza kampaniyası təşkil etmirlər? Niyə bu gün həbsxanalarda aclıq aksiyası keçirən, haqsızlığa məruz qalan qələm adamları üçün bir dəfə də olsun söz deməyiblər? Niyə həmin dustaq yazıçılar üçün bircə imza toplamayıblar?

Demək ki, bütün bunların bircə adı var: təxribat. Məqsəd Azərbaycan Respublikasını, Azərbaycan Yazıçılar Birliyini və şəxsən məni hədəfə almaq, burada Cənubi Azərbaycanı təmsil edən, Azərbaycan dövlətinin siyasətinə uyğun şəkildə fəaliyyət göstərən yeganə fərdi susdurmaqdır. Bu kampaniya nə ədəbiyyat, nə inkişaf, nə də mədəniyyət uğrunda mübarizə deyil, bu, ucuz, sifarişli, çirkin təxribatdan başqa bir şey deyil".

Məsələ ilə bağlı Azərbaycan Yazıçılar Birliyinin (AYB) də mövqeyini öyrənməyə çalışdıq. Qurumun mətbuat katibi Xəyal Rza bildirdi ki, məsələ tezliklə katibliyin iclasında müzakirə olunacaq:

“Müzakirədən sonra, yəqin ki, bir qərar veriləcək. Verilən qərar barəsində açıqlama olacaq”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 222 (8832) 6 dekabr 2025

# Gürcüstanda əcnəbi tələbələrə "qırmızı işıq" - Azərbaycana problem?

## Ekspert: "Tələbə axınının xaricə yönəlməsinə səbəb olan boşluqlar aradan qaldırılmalıdır"

**Növbəti tədris ilindən etibarən Gürcüstanın dövlət universitetlərinə əcnəbi tələbələrin qəbulu dayandırılacaq. Bu barədə Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze bildirib.**

O qeyd edib ki, özəl ali məktəblər fəaliyyətlərini adi rejimdə davam etdirəcəklər və əcnəbi tələbələri qəbul etmək imkanı əldə edəcəklər (APA).

Nazirin sözlərinə görə, hazırda bəzi dövlət universitetlərində əcnəbi tələbələrin sayı təhsil alanların ümumi sayının təqribən yarısını təşkil edir. "Biz Gürcüstan vətəndaşlarına keyfiyyətli təhsilin verilməsinə diqqət yetirməliyik. Buna görə də dövlət ali məktəblərinə Gürcüstan vətəndaşlarından bir neçə dəfə çox təhsil haqqı ödəyən əcnəbilər qəbul edilməyəcək", - Mikanadze əlavə edib.

Qeyd edək ki, Gürcüstanda 63 ali təhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan 19-u dövlət universitetidir.

2024-2025-ci tədris ilində Gürcüstan universitetlərində təhsil alan əcnəbilərin sayı 37 125 nəfər təşkil edib. Bu göstərici əvvəlki tədris ili ilə müqayisədə 6 424 nəfər çoxdur. Qonşu ölkədə ali təhsil alan Azərbaycan vətəndaşlarının sayı isə 8600 nəfərdir. Onların 3760-sı dövlət, 4840-ı isə özəl universitetlərin tələbələridir.

Qeyd edək ki, Gürcüstanda səfərdə olan Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev isə "Report"un Gürcüstan bürosuna açıqlamasında deyib ki, Azərbaycan Gürcüstanla ali təhsil müəssisələri arasında birgə tədqiqatlar aparmaq, tələbə mübadiləsi proqramlarını genişləndirmək və iki ölkənin gəncləri üçün faydalı layihələri gerçəkləşdirmək istəyir. O qeyd edib ki, səfərin əsas məqsədi Azərbaycan və Gürcüstan arasında təhsil və elm sahəsində əməkdaşlığı müzakirə etməkdir. Nazir bildirib ki, səfər çərçivəsində həm Tbilisidəki məktəblərdə, həm də Tbilisi Dövlət Universiteti və Gürcüstan Texniki Universitetində görüşlər keçiriləcək.

E.Əmrullayev əlavə edib ki, prioritet Azərbaycan və Gürcüstanda fəaliyyət göstərən məktəblərdə təhsilin keyfiyyətinin artırılması və müəllim hazırlığının gücləndirilməsidir.




Təhsil eksperti Kamran Əsədov hesab edir ki, Gürcüstanın dövlət universitetlərinə əcnəbi tələbə qəbulunu dayandırması regionda ali təhsil bazarının struktur balansını dəyişən və milli təhsil siyasətinin prioritetlərini yenidən müəyyənləşdirən qərardır. "Yeni Müsavat"a şərhində ekspert qeyd etdi ki, nazir Givi Mikanadzenin açıqladığı kimi, bəzi dövlət universitetlərində əcnəbilərin payının 50 faizə çatması dövlət təhsil missiyasının əsas funksiyası yerli vətəndaşların keyfiyyətli ali təhsilə çıxışını təmin etmək ilə ziddiyyət təşkil edir: "Bu yanaşma göstərir ki, Gürcüstan ali təhsil məkanını kommersiya yönümlü modeldən sosial missiyalı modelə geri qaytarmaq istəyir. Azərbaycan qanunvericiliyində də eyni prinsip mövcuddur: "Dövlət ali təhsil müəssisələri təhsildə bərabər imkanları təmin etməli və sosial ədalət prinsipinə əsaslanmalıdır" ("Təhsil haqqında" qanun, maddə 3). Gürcüstanın qərarı bu prinsipin sərt tətbiq forması kimi çıxış edir. Bu addımın region üçün təsiri tələbə axınının istiqamətinin dəyişməsi ilə daha aydın görünəcək. Gürcüstanda hazırda 20 mindən çox əcnəbi tələbə təhsil alır və onların təxminən üçdə birini azərbaycanlılar təşkil edir. Təkcə tibb ixtisasında oxuyan azərbaycanlıların illik sayı 1500-1800 nəfər arasında dəyişir. Qadağadan sonra bu kontingentin əhəmiyyətli hissəsi təbii olaraq alternativ istiqamətlərə yönələcək və Azərbaycan ali təhsil sistemi üçün yeni tələbə axını yaranacaq. Dünya təcrübəsi göstərir ki, regional təhsil mərkəzinə çevrilən ölkələr - Türkiyə, Gürcüstan, Polşa, Malayziya tələbə axınının dəyişməsindən böyük qazanclar əldə ediblər. Azərbaycan da son illər ali təhsil sektorunda apardığı islahatlarla oxşar potensial yaradır: tamştat müəllim modeli, nəticəyönlü akkreditasiya, proqramların beynəlmiləlləşdirilməsi, xarici tələbələr üçün vizasız və sadələşdirilmiş qəbul prosedurları ölkəmizi real seçim ölkəsinə çevirir. Elm və Təhsil Nazirliyinin ardıcıl və data əsaslı siyasəti burada xüsusi vurğulanmalıdır; çünki son beş ildə universitetlərin keyfiyyət mexanizmləri sərtləşdirilib, tədris standartları yenilənib, ingilis dilli proqramların sayı 2,5 dəfə artıb və bu, Azərbaycanı regionda rəqabətqabiliyyətli təhsil mərkəzi kimi möhkəmləndirib".

Ekspert azərbaycanlı tələbələrin Gürcüstanı seçməsinin səbəblərinə dair statistik təhlillərə diqqət çəkərək söylədi ki, əsas motivlər aşağı təhsil haqqı (orta illik 2500-3500 USD), qəbul prosesinin sadəliyi və attestatla qəbul imkanı, tibb təhsilində yer çatışmazlığının Gürcüstan tərəfindən kompensasiya olunması, coğrafi yaxınlıq və nəqliyyat əlçatanlığıdır: "Bu indikatorlar göstərir ki, tələbələr tənzimlənməsi asan, iqtisadi yükü az olan ölkələri seçməyə meyillidirlər. Gürcüstandakı qadağa bu motivasiyanın yenidən qiymətləndirilməsinə səbəb olacaq və tələbələr artıq seçimlərini daha çox iki istiqamət üzrə edəcəklər: öz ölkələrində təhsil almaq və ya daha yüksək keyfiyyətli və strukturlaşmış ali təhsil sistemləri olan Türkiyə, Şimali Kipr, Polşa və Baltikyanı ölkələrə yönəlmək. Qadağanın Azərbaycanda tətbiq olunması ehtimalı isə real görünmür, çünki ölkəmizin ali təhsil strategiyası əks modeli - beynəlmiləlləşməni və xarici tələbə sayının artırılmasını - prioritet kimi müəyyənləşdirib. "Azərbaycan Respublikasında ali təhsil sisteminin inkişafı üzrə 2030 strategiyası"nda vurğulanır ki, ölkənin məqsədi "xarici tələbələr üçün regional təhsil mərkəzinə çevrilməkdir" və əcnəbi tələbə sayı 2030-cu ilədək ən azı iki dəfə artırılmalıdır. Hazırda ölkəmizdə təhsil alan 15 minə yaxın xarici tələbə dövlət və özəl universitetlərə illik təxminən 70-80 milyon manat iqtisadi töhfə verir. Bununla yanaşı, Elm və Təhsil Nazirliyi son illərdə ciddi keyfiyyət təminatı islahatları ilə bazarın kommersiyalaşmasının qarşısını alıb. Akkreditasiya tələblərinin sərtləşməsi, müəllim yüklərinin optimallaşdırılması, məktəblərdə olduğu kimi universitetlərdə də idarəetmə standartlarının yenilənməsi təhsil sistemini daha davamlı və etibarlı edir. Bu səbəbdən Gürcüstandakı kimi kəskin məhdudiyyətlərə ehtiyac qalmır və ölkənin təhsil siyasəti daha balanslı şəkildə qurulur. Gürcüstanın qərarının müsbət tərəfləri ondan ibarətdir ki, yerli tələbələr üçün daha çox yer ayrılacaq, təhsil resursları sosial missiyaya yönələcək və dövlət universitetlərində keyfiyyətsiz kommersiya abituriyent axını azalacaq. Mənfi tərəfi isə regionda tələbə miqrasiyasının süni şəkildə pozulmasıdır. Bu, həm Gürcüstanın iqtisadi gəlirlərinin azalmasına, həm də müəyyən ixtisaslar üzrə kadr bazasının daralmasına səbəb ola bilər. Məsələn, 2023-cü ildə Gürcüstanın dövlət universitetlərində əcnəbi tələbələrin ödədiyi təhsil haqqı 120 milyon larini keçmişdi və bu məbləğ bütövlükdə sistemin maliyyə sabitliyinə təsir göstərirdi".

K.Əsədovun sözlərinə görə, Azərbaycan üçün dəyişəcək əsas məsələ tələbələrin seçim xəritəsinin yenidən formalaşması olacaq: "Yerli universitetlər üçün yaranan yeni bazar boşluğu həm imkan, həm də məsuliyyətdir. Universitetlər daha çox ingilis dilli proqram açmalı, laborator və klinik təhsili gücləndirməli, beynəlxalq akkreditasiyalara qoşulmalı və təhsil haqlarında rəqabət qabiliyyətini artırmalıdırlar. Nazirliyin son islahatları bu istiqamətdə mühüm zəmin yaradır və bu baxımdan Gürcüstanın qadağası Azərbaycan üçün əslində strateji üstünlük yarada bilər. Məhz buna görə Elm və Təhsil Nazirliyinin son dövrdəki siyasəti qabaqlayıcı, çevik və müasir təhsil bazarının tələblərinə uyğun hesab edilməlidir. Azərbaycan təhsil sistemi üçün dəyişməli olan isə tələbə axınının xaricə yönəlməsinə səbəb olan boşluqların aradan qaldırılmasıdır: tibb təhsilində yer məhdudiyyəti, bəzi universitetlərdə laborator infrastrukturunun zəifliyi və qəbul sistemində çevikliyin tam formalaşmaması tələbələri xaricə yönləndirən əsas amillərdir. Bu sahələrdə islahatlar sürətləndikcə, Gürcüstan yönümlü tələbə axınının böyük hissəsini ölkə daxilində saxlamaq mümkün olacaq. Regionda formalaşan yeni situasiya Azərbaycan üçün artıq strateji üstünlük yaradır və ölkə bunu effektiv idarə etməklə regional təhsil mərkəzinə çevrilmək şansını daha da gücləndirə bilər".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 222 (8832) 6 dekabr 2025

# "Halal" adı ilə donuz əti konservi satılır - Əhaliyə xəbərdarlıq

## Ekspert deyir ki, istehlakçının aldadılması qanunvericiliyin kobud şəkildə pozulması sayılır; **AQTA inkar edir:** "Qeyd olunan istehsal tarixli mal əti konservi ölkəmizə idxal olunmayıb"

**Rusiyada fəaliyyət göstərən "Qlavprodukt" şirkətinin Azərbaycana göndərdiyi mal əti konservlərində donuz əti DNT-si aşkar edilib. Bu barədə "İnsayder" nəşri məlumat yayıb. Məlumata görə, şirkətin halal adı altında bişmiş mal əti konservləri Rusiya Silahlı Qüvvələrinə və Azərbaycan da daxil olmaqla bir neçə müsəlman ölkələrinə göndərilib.**

Məhsulun genetik analizinin nəticələrindən sonra qanunsuzluqar aşkar olunub. Bildirilir ki, sözügedən şirkət bu ilin iyulunda keçmiş kənd təsərrüfatı naziri Aleksandr Tkaçeyevə yaxın qurumun nəzarəti altına keçib. Sentyabrda aparılan analizə əsasən, "Family Budget" markalı 500 qramlıq bişmiş ət konservlərində donuz ətinin DNT-si aşkar edilib. Bu "Qlavprodukt"un Oryol vilayətindəki törəmə şirkəti olan "Oryolprodukt" ASC tərəfindən istehsal edilib.

"Azad İstehlakçılar" ictimai birliyinin sədri Eyyub Hüseynov Cebheinfo.az saytına bildirib ki, ölkənin quru və hava sərhədlərindən heç bir ərzaq AQTA-nın yoxlaması, rəyi olmadan ölkəyə daxil ola bilməz.

Söhbət insanların aldadılmasından gedir. Yəni kimsə donuz əti almaq istəyirsə, alsın, amma halal ət adı ilə vətəndaşlara kələk gəlmək ciddi qanunsuzluqdur.

Bəs xarici ölkələrdən ölkəyə konservlər idxal olunduqda AQTA tərəfindən yoxlanılırsa, niyə donuz əti mal əti adı altında satılır və bu, istehlakçı hüquqlarının pozulması deyilmi?

Qida eksperti Asim Vəliyev mövzu ilə bağlı "Yeni Müsavat"a bunları deyib: "Ölkəyə daxil olan bütün ərzaq məhsulları, o cümlədən konservlər Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin nəzarətindən keçmədən dövriyyəyə buraxıla bilməz. Agentlik idxal prosesində məhsulların sənədlərini, mənşəyini, tərkibini və uyğunluğunu qiymətləndirir. Amma beynəlxalq ticarətin genişliyi, müxtəlif istehsalçıların bazara çıxması, bəzi şirkətlərin bilərəkdən yanlış etiketləmə təcrübələrinə əl atması riskləri tam aradan qaldırmır. Bu baxımdan araşdırmaların aparılması, məhsulun ölkəyə daxil olduğu mərhələdən satış nöqtəsinədək bütün zəncirin yenidən yoxlanması vacibdir.

Burada əsas problem halal adı altında donuz komponentinin gizli şəkildə istifadə edilməsidir. İslam dinində donuz əti və ondan hazırlanan məhsullar qəti şəkildə haram sayılır. Bu qadağa Qurani-Kərimdə açıq şəkildə qeyd edilib. Müəyyən fövqəladə vəziyyətlər istisna olmaqla, müsəlmanların bu məhsulu istehlak etməsi dini baxımdan yolverilməzdir. Məhz buna görə halal etiketi istehlakçı üçün sadəcə ticarət işarəsi yox, dini və mənəvi məsuliyyət daşıyan bir zəmanətdir. Bu etimadı qəsdən pozmaq həm etik, həm hüquqi, həm də reputasiya baxımından ağır nəticələr yarada bilər".




Ekspert qeyd edir ki, istehlakçının aldadılması qanunvericiliyin kobud şəkildə pozulması sayılır: "Tərkibi yanlış göstərilən və ya istehlakçını çaşdıran etiketləmə qanunla qadağandır. Bu halda satışa çıxarılan məhsulun tərkibində donuz DNT-sinin olması, amma halal və mal əti adı altında təqdim edilməsi nəinki aldatma, həm də sağlamlıq və dini etiqad azadlığının pozulması kimi qiymətləndirilə bilər. Həm idxalçı şirkət, həm də istehsalçı bu məsuliyyətdən yayınmamaq üçün izahat təqdim etməli, dövlət qurumları isə fakt araşdırmasını tam şəkildə aparmalıdır.

Bu kimi hallar istehlakçılara açıq mesaj verir ki, məhsul seçərkən etiketə əlavə olaraq istehsalçı haqqında məlumat, sertifikatların mövcudluğu, mənşə ölkəsi və qablaşdırma üzərindəki identifikasiya kodları diqqətlə yoxlanmalıdır. Əgər şübhəli məqamlar varsa, istehlakçı həm agentliyə, həm də istehlakçı hüquqlarını müdafiə edən təşkilatlara müraciət etməlidir. Şəffaflıq və ictimai nəzarət nə qədər güclü olarsa, belə halların qarşısı bir o qədər tez alınır".

Qeyd edək ki, məsələ ilə bağlı AQTA-ya da sorğu ünvanladıq. Qurumun cavabında bunlar bildirilib: "Bildiririk ki, Rusiyanın "Oryolprodukt" ASC-nin mediada qeyd olunan istehsal tarixli mal əti konservi məhsul partiyası ölkəmizə idxal olunmayıb".

Halal standartı - məhsulların və xidmətlərin İslam qaydalarına uyğun şəkildə hazırlanmasını təmin edən qaydalar toplusudur. Bu standartın əsas məzmunu xammalın halal mənşəli olmasını, istehsal prosesində haram və ya nəcis maddələrlə çirklənməməsini və məhsulun gigiyena baxımından təhlükəsiz olmasını tələb edir.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Suya təşnə olan İran Azərbaycandan su alacaq?

**İranda su böhranı artıq dövlət səviyyəsində etiraf olunan, siyasi və sosial sabitliyi təhdid edən ən ciddi problemlərdən birinə çevrilib. İranın enerji naziri Abbas Əliabadi qonşu ölkələrdən su idxalının planlaşdırıldığını deyib. Nazir bunu İranda geniş yayılmış quraqlıqla əlaqələndirib: "Əgər suyu münasib qiymətə satmaq istəyən bir ölkə varsa, biz onu alacağıq".**

Ciddi quraqlıq, illərlə davam edən yanlış su idarəçiliyi, həddən artıq istifadə və ekoloji fəlakətlər nəticəsində İranın su sistemi çökmüş vəziyyətə düşüb.

Son bir ildə vəziyyət daha da kəskinləşib. 2025-ci ilin mart ayında prezident Məsud Pezeşkian ölkənin quraqlıq və həddindən artıq su istehlakı səbəbindən su böhranı ilə üzləşdiyini bildirib. 2025-ci ilin iyul ayınadək vəziyyət daha kritik hala gəlib: paytaxt Tehran da daxil olmaqla, bir neçə şəhərdə su məhdudiyyətləri tətbiq edilib, bəzi ərazilərdə 48 saata qədər su olmayıb. 2025-ci ilin yayında isə bölgənin ən böyük duzlu su hövzəsi olan Urmiya gölü tamamən yoxa çıxıb. Noyabrda yağan güclü yağışlar belə qurumuş torpağın suyu qəbul etməməsi səbəbindən problemi çözə bilmədi və daha bir problem (daşqın) yaratdı.

2025-ci ilin noyabrında Tehranı təmin edən su anbarında səviyyə kritik minimuma düşüb. Pezeşkian yağış yağmazsa, paytaxtın təxliyə edilməsinin vacib ola biləcəyi barədə xəbərdarlıq edib. Həmin ayın ortalarında Tehran sakinləri su təchizatına etibar etmədikləri üçün kütləvi şəkildə şüşə qablarda su aldıqları barədə xəbər verilmişdi.

Bu fondda ortaya çıxan su idxalı məsələsi həm regionda, həm də Azərbaycanda maraq doğurur: İran Azərbaycandan su ala bilərmi? Bu, texniki və iqtisadi cəhətdən mümkündürmü?

Azərbaycanın su ehtiyatları regionun bir çox ölkəsindən fərqli olaraq transsərhəd çaylara bağlıdır və illik dəyişkənlik çox yüksəkdir. Kür-Araz hövzəsində suyun həcmi hər il azalır, iqlim dəyişikliyi fonunda şimal bölgəsində çay axınları zəifləyir, aran zonasında suya tələbat artır. Son illərdə təsərrüfat, əkinçilik və şəhər şəbəkələri üçün əlavə su layihələri həyata keçirilsə də, ölkənin özü üçün belə su resursları komfortlu səviyyədə deyil. Yay aylarında su qıtlığı epizodları Bakıda və regionlarda zaman-zaman yaşanır.



Azərbaycan üçün əsas məsələ daxili su təhlükəsizliyinin qorunmasıdır. Regiondakı iqlim dəyişiklikləri, azalmaqda olan çay axınları və strateji ehtiyatların məhdudluğu fonunda ölkənin gələcəkdə su qıtlığı yaşamaq riski də mövcuddur. Su idarəçiliyinin səmərəliliyi, itkilərin azaldılması, yeni infrastruktur layihələri və su ehtiyatlarının qorunması yaxın illər üçün həyati vacib olacaq.

Ekoloq Rövşən Abbasov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, ölkələrin bir-birinə su satması təcrübəsi var. Onun sözlərinə görə, belə bir təklifi Rusiya Orta Asiya ölkələrinə edib: "Əlbəttə, Rusiya su resursları ilə çox zəngin olan bir ölkədir. Orada bol sulu çaylar çoxdur. Amma bunu Azərbaycan üçün demək olmaz. Çünki Azərbaycan aşağı axın ölkəsidir. Su ehtiyatlarının 70 faizindən çoxu Azərbaycana xarici ölkələrdən gəlir və getdikcə bu azalır. Yəni Azərbaycanın özünün suya olan tələbatı çoxdur. Digər tərəfdən, biz qonşu ölkəyə su transfer etmək istəyiriksə, düşünməliyik ki, bunu hansı yolla edəcəyik. Çünki ölkəmizdən İrana suyun fiziki yolla çatdırılması da mümkün deyil. İran daha yüksəkdədir və bunun üçün elektrik enerjisi lazım olacaq. Bir sözlə, bu fikir cəlbedici və iqtisadi cəhətdən effektiv deyil".

Ekspert bildiri ki, İranla su əməkdaşlığı yalnız müəyyən, məhdud miqyasda - əsasən transsərhəd çayların tənzimlənməsi çərçivəsində mümkündür. Onun sözlərinə görə, Azərbaycan böyük həcmdə içməli suyu İrana ixrac edə biləcək səviyyədə resurs bolluğuna malik deyil:" Mövcud su ehtiyatlarının prioriteti ölkədaxili təminatdır: Bakının içməli su sisteminin yükü artır, kənd təsərrüfatı sahələrinin genişlənməsi suya tələbatı daha da böyüdür.

Azərbaycan yaxşı olardı ki, ilk növbədə özü özünü su ilə təmin etsin. Yəqin ki, İranla su barədə perspektivdə bizim əməkdaşlıq olmayacaq. Əlbəttə, İran Araz çayı olan anbardan daha artıq su götürə bilər. Lakin belə bir razılaşma daimi deyil, hansısa kritik vaxtlarda ola bilər. Yəni şərikli su anbarlarından onlar üçün kvotalar ayrıla bilər. Amma bu o şərtlə edilə bilər ki, ilk olaraq Azərbaycanın özünə su çatsın".

Mütəxəssislər deyir ki, texniki-logistika baxımından da içməli suyun böyük həcmdə İran ərazisinə nəqli real görünmür. Su boru xətti layihələri çox böyük maliyyət tələb edir, daşınma xərcləri isə suyu İran üçün "ucuz resurs" olmaqdan çıxarır. İranın özü də su idxalına yalnız məcbur qaldığı üçün baxır - ölkədə günü-gündən kritikləşən vəziyyət alternativ buraxmır.

Azərbaycanın suyu özünə güclə yetir, böyük həcmli ixrac texniki və strateji baxımdan mümkün deyil. Regionda su geosiyasəti getdikcə daha sərtləşir və qarşıdakı illərdə bu məsələ ölkələr arasında ən kritik mövzulardan birinə çevriləcək.

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

# Azərbaycanda enerji içkilərinin qadağası gündəmdə

**Azərbaycana idxal olunan "Nitro Max" energetik içkilərində qanunvericiliklə qida məhsullarında istifadəsinə icazə verilməyən təhlükəli maddə aşkarlanıb. Bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib. Bildirilib ki, Qida Təhlükəsizliyi Agentliyinin müfəttişləri tərəfindən "Orxan 011" MMC tərəfindən idxal olunmuş "Nitro Max" əmtəə nişanlı energetik içki məhsul partiyasından laborator sınaqlarının nəticələrinə əsasən, məhsullarda dərman vasitələrinin tərkibində istifadə olunan və qanunvericiliklə qida məhsullarında istifadəsinə icazə verilməyən sildenafil maddəsi aşkar edilib.**

### Fazil Mustafa: "İdman yarışlarını belə idmana zidd olan enerji içkilərinin sponsorluğu ilə keçirirlər"
### Adil Qeybulla: "Uşaqların sərbəst şəkildə energetik içki alması böyük təhlükədir"




Ümumi sayı 4800 ədəd olan energetik içkil sahibkarın və agentlik əməkdaşlarının iştirakı ilə xüsusi poliqonda məhv edilib.

Son dövrlər Azərbaycanda yeniyetmələr və uşaqlar arasında qəfil ürək ölümlərinin artmasının bir səbəbini də enerji içkiləri ilə əlaqələndirirlər. Həkim-kardioloq Jalə Abbasova bizimlə söhbətdə bildirib ki, yeniyetmələrdə erkən yaşda baş verən bu cür ölümlərin başlıca səbəblərindən biri energetik içkilərdən sui-istifadədir.

Bəzi ölkələrdə enerji içkilərinin satışına qadağa qoyulub. Litva, Latviya, Polşa, Rumıniya və Türkiyədə enerji içkilərinin 18 yaşdan kiçik şəxslərə satışı qadağandır. Qazaxıstanda isə məhdudiyyət daha sərtdir və bu içkilər 21 yaşdan kiçiklərə satıla bilməz. Danimarka, Fransa və Norveç kimi ölkələr 1990-2000-ci illərdə yüksək kofein və taurin tərkibli enerji içkilərinə, xüsusilə Red Bull-a tətbiq olunan tam qadağa tətbiq edir. Hazırda bir çox ölkələrdə enerji içkiləri tam qadağan olunmasa da, onların satışı ciddi şəkildə məhdudlaşdırılır.

Bizdə də belə qadağalar olmalıdırmı?

Millət vəkili Fazil Mustafa mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşüb: "Enerji içkilərinin təsiri böyükdür. Bunlar təbliğatın nəticəsində belə geniş vüsət alıb. Bizdə bəzən idman yarışlarını belə idmana zidd olan enerji içkilərinin sponsorluğu ilə keçirirlər. Əslində bunlar olmamalıdır. Bunun özü də bir təbliğat növüdür. Ona görə də uşaqların qəfil ölümünün səbəbləri ciddi şəkildə araşdırılmalıdır. Bunlar narahatedici məsələlərdir. Hesab edirəm ki, bu məsələ ətrafında çox ciddi araşdırma aparılmalıdır. Məsələnin mahiyyəti dəqiq aşkara çıxarılmalıdır. Əks halda bu cür faciəli hadisələrin tez-tez şahidi ola bilərik. Bu hər kəsin evində sirayət edəcək hadisələrin qarşısını almalıyıq".

Həkim - cərrah, professor Adil Qeybulla mövzu ilə bağlı "Yeni Müsavat"a bunları deyib: "Energetik içkilərlə bağlı məsələ getdikcə aktuallaşır. Xüsusilə də uşaqların olduğu məkanlarda, məktəblərdə uşaqların bufetlərdən gedib sərbəst şəkildə almasına heç bir nəzarət yoxdur. Böyüyən uşaq orqanizmi üçün bu içkilər çox ziyanlıdır. Onların ürəyini həddən artıq yorur, beyninin funksiyalarını pozur. Həmin içkilərin tərkibində olan, hələ leqal olanları deyirəm, kofein, taurin kimi maddələr uşaqlara çox ziyandır. Bu içkilərin tərkibindəki asılılıq yaradan maddələrin olmasına gəlincə, bununla zaman-zaman şayiələr, söhbətlər gəzirdi. Təəssüf ki, bu şayiələr heç də əsassız deyil. Çünki bu içkilərə aludəçilik çox hiss olunur. AQTA bu məsələdə diqqətli olmalıdır. Onun tərkibinə müəyyən maddələrin vurulması asılılıq yaradırsa, bu çox təhlükəlidir. Gənclər arasında da enerji içkilərinin istehlakı çox genişlənib. Bu yoxlamalar da çox mühümdür".

Xatırladaq ki, enerji içkilərinin yüksək kofein tərkibi ürək döyüntüsünü sürətləndirir, qan təzyiqini yüksəldir və mərkəzi sinir sistemini stimullaşdırır. Uşaqlar, yeniyetmələr və ürək xəstələri üçün bu, ciddi risklər yarada bilər. Həddindən artıq kofein qəbulu ürək ritminin pozulmasına, yüksək təzyiqə, yuxusuzluğa və nadir hallarda qəfil ürək problemlərinə səbəb ola bilər. Enerji içkilərindəki digər stimullaşdırıcı maddələr, məsələn, taurine və guarana, kofeinlə birlikdə sinergetik təsir göstərir. Bu, ürəyin daha çox işləməsinə səbəb olur və uzun müddət və ya həddindən artıq istehlak zamanı ürək və damar sistemi üzərində əlavə yük yaradır. Bu içkilər həmçinin aludəçilik riski daşıyır. İçkilərdəki stimullaşdırıcı maddələr beyində dopamin və digər sinir sistemini aktivləşdirir, yorğunluğu aradan qaldırmaq üçün daha çox istehlaka meyil yaradır. Enerji içkilərinin əksəriyyəti çox miqdarda şəkər ehtiva edir ki, bu da diabet, piylənmə və diş problemlərinə yol açır.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Plastik torba qalmaqalı: qiymət qalxdı, istifadəsi azalmadı...

**Ölkədə plastik torbaların qiymətinin artırılması yenidən ictimai müzakirələrin mərkəzinə çevrilib. Kiçik ölçülü torbaların qiyməti 3 qəpikdən 5 qəpiyə qaldırılıb, böyük torbalar isə artıq 7 qəpiyə təklif olunur.**



Mağazalarda apardığımız müşahidələr göstərir ki, qiymət dəyişikliyinə baxmayaraq, alıcıların əksəriyyəti hələ də polietilen torbalardan bol-bol istifadə edir.

Söhbətləşdiyimiz alıcıların əksəriyyəti qiymət artımının onlar üçün ciddi maneə olmadığını bildirir.

"Başqa çarəmiz yoxdur. Qiymət artsa da, artmasa da almağa məcburuq. Plastik torbalar daha sərfəlidir, çünki ucuzdur, digər torbalar isə çox bahadır, onldardan almağa imkan yoxdur".

Qeyd edək ki, bir sıra böyük supermarketlərdə, mağazalarda ekoloji cəhətdən daha təhlükəsiz, parçadan və ya bioloji əsaslı materiallardan hazırlanan torbalar da var. Amma onların qiyməti baha olduğundan alıcılar əsasən sellofan torbalara üstülük verir.

Xatırladaq ki, Azərbaycanda plastik torbaların pullu olması 2023-cü il fevralın 15-dən tətbiq edilib.

Bəs yeni qiymətlər dəyişiklik yaradacaqmı? Plastik torbalara hansı alternativlər mümkündür?

Mövzu ilə bağlı iqtisadçı Natiq Cəfərli "Yeni Müsavat"a danışıb. İqtisadçı qeyd edib ki, Azərbaycanda plastik torbaların qiyməti dövlət tərəfindən tənzimlənir:

"Yəni, əslində, onların satış qiymətini marketlər müəyyənləşdirir, lakin dövlətin qoyduğu qaydalar çərçivəsində. Lakin burada daha maraqlı və düşündürücü məqam bu qərarın əsl səbəbi və gətirdiyi nəticələrdir. Plastik torbaların pullu olması niyə təklif edildi? Rəsmi izahatlarda qeyd olunur ki, məqsəd ekoloji ziyanı azaltmaqdır. İnsanlara təkid edilir ki, plastik torbalardan imtina etsinlər, alternativ olaraq parça torbalar və ya təkrar istifadə olunan qablar gətirsinlər.

Lakin statistik nəticələr göstərir ki, qərarın qəbulundan sonra, əksinə, ölkədə plastik torbalardan istifadə təxminən 30-35 faiz artıb. Yəni, məqsəd ilə nəticə arasında ciddi bir ziddiyyət yaranıb. Bu, əslində düşündürücüdür: əgər məqsəd ətraf mühitin qorunmasıdırsa, bunun təşviqedici yollarla həyata keçirilməsi daha məqsədəuyğun olardı.

Xarici ölkələrdə müşahidə edirik ki, kassaya yaxınlaşan hər beş nəfərdən ən azı üç-dördü özü ilə gətirdiyi parça torbalardan istifadə edir. Alınan əşyaları bu torbalara yerləşdirirlər və əlavə plastik torba almırlar. Azərbaycanda isə bu nadir görüntüdür. İnsanların ətraf mühitin qorunması istiqamətində təşviq edilməsi və düzgün izah olunması üçün sosial rol modellərinə, kampaniyalara və maarifləndirmə işlərinə ehtiyac var ki, məqsədə nail olunsun".

İqtisadçının fikrincə, bu məsələni sadəcə pulla satmaqla həll etmək olmaz:

"Hazırda mağazaların plastik torbaları pullu satmaqla əlavə gəlir əldə etdikləri müşahidə olunur. Qiymət 7 qəpikdir və bahadır. Çünki torbaların maya dəyəri çox ucuzdur. Beləliklə, bu sadə ekoloji layihə əslində biznesə çevrilmiş oldu. Halbuki əsas məqsəd, sözün həqiqi mənasında, ekoloji tarazlığı qorumaq və insanların plastik torbalardan istifadəsini azaltmaq olmalı idi".

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə qeyd edib:

"Ətraf mühiti çirkləndirən plastik torbalar dünyanın ciddi problemlərindən biridir. Bir çox ölkələrdə, o cümlədən MDB məkanında və digər ölkələrdə bu məsələni azaltmaq üçün müəyyən tədbirlər görülür. Belə ki, plastik torbaların satışını pullu etmək təklifi irəli sürülüb ki, insanların istifadəsi azalsın və bunun nəticəsində ətraf mühitə zərər minimuma enə bilsin. Lakin təəssüf ki, Azərbaycanda bu qərar qəbul olunsa da, biznes qurumları vəziyyətdən sui-istifadə etdilər.

Plastik torbalar rəngli istehsal olundu, üzərlərinə reklam materialları yerləşdirildi və pulla satılmağa başlandı. Halbuki qurumumuz tərəfindən tövsiyə belə idi ki, plastik torbalar son dərəcə nazik olsun, rəngsiz istehsal edilsin və üzərində heç bir reklam materialı olmasın. Çünki reklam materiallarında istifadə olunan bəzi ağır metallar zəhərlidir və torbalar vasitəsilə evlərə, su və torpağa qarışaraq ekoloji fəsadlara səbəb olur.

Təəssüf ki, yalnız bu ilə kifayətlənmədi, son 2-3 il ərzində plastik torbaların qiyməti artdı, keyfiyyəti isə aşağı düşdü. Eyni zamanda, qiymət artımı ilə bağlı satıcılar da narazılıqlarını bildirirlər. Əhali bu torbalardan imtina etməli, alternativ, ekoloji cəhətdən təmiz və təkrar istifadə oluna bilən bazar torbalarına keçməlidir.

Əslində, bu istiqamətdə uğurlu təcrübələr də mövcuddur. Məsələn, dörd il öncə Azad İstehlakçılar Birliyi olaraq bir layihə çərçivəsində 500-ə yaxın ekoloji bez torba hazırlamış və əhaliyə pulsuz paylanmışdıq. Bu layihə əhali tərəfindən çox müsbət qarşılanmışdı. Bez torbalar dəfələrlə istifadə oluna bilir, ekoloji cəhətdən təmizdir və ətraf mühitə heç bir zərər vermir.

Mən əhaliyə tövsiyə edirəm ki, plastik torbalardan birdəfəlik imtina etsinlər və alış-veriş zamanı bazar torbalarından istifadə etsinlər. Ən yaxşı alternativ isə Talış zənbilləridir, onlar ən ekoloji cəhətdən təmiz və təkrar istifadə oluna bilən seçimdir. Şəxsən mən də həmin zənbillərdən istifadə edərək alış-veriş edirəm".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 222 (8832) 6 dekabr 2025
Dekabr

# Amerikalı kişi özünün düzəltdiyi təyyarə maketinin qurbanı oldu



ABŞ-nin Arizona ştatında ağlasığmaz faciə baş verib. Oxu.Az "The Mirror" nəşrinə istinadən xəbər verir ki, sərgi zamanı 60 yaşlı Rocer Uolles düzəltdiyi təyyarə maketinin özünə çırpılması nəticəsində həyatını itirib. Məlumata görə, hadisə baş verən anda gözünə gün düşdüyü üçün o, öz əl işini görə bilməyib və ağır xəsarətlər alıb. Şahidlərin sözlərinə görə, təxminən 3 kiloqram ağırlığında olan maket Uollesin döş qəfəsinə çırpılaraq onun ürək və ağciyərini zədələyib. Sərgi iştirakçıları ona ilkin tibbi yardım göstərməyə çalışsalar da, həyatını xilas etmək mümkün olmayıb. Rocer Uolles hadisə yerində həlak olub. Xəbərdə bildirilir ki, Uolles təcrübəli təyyarə modelçisi olub.



## Soyuq havada çay əvəzinə su içməyin faydaları

Qış aylarında çoxlarımız isinmək üçün isti çaya üstünlük veririk, lakin ılıq suyun faydalarını heç nə əvəz etmir. Məhz ılıq su immun sistemini dəstəkləməyə kömək edir və qışda düşündüyümüzdən daha tez-tez baş verən susuzlaşmanın qarşısını alır. Oxu.Az xəbər verir ki, rusiyalı diyetoloq Lyudmila Denisenko bu barədə "KP.ru"ya müsahibəsində danışıb. "Əslində, otaq temperaturunda olan adi su içilməlidir. Çünki əksər içkilər (çay, xüsusilə bitki çayları və qəhvə) sidikqovucu təsirə malikdir. Bu isə orqanizmdən daha çox mayenin xaric olunması deməkdir. Su balansı isə mütləq bərpa edilməlidir, əks halda orqanizm hüceyrə səviyyəsində zərər görməyə başlayacaq", - deyə Denisenko bildirib.

Onun sözlərinə görə, insanlar çox vaxt bunun fərqinə varmırlar və susuzluq hiss etmədiklərini düşünürlər. Əgər orqanizm uzun müddət kifayət qədər su almırsa, susuzluq hissi zəifləyir və insan xroniki susuzlaşma vəziyyətində yaşayır. Zamanla bu hal soyuqdəymə, oynaq ağrıları və böyrək problemlərinə səbəb ola bilər. Mütəxəssis qeyd edir ki, su içməyi kiçik porsiyalarla vərdişə çevirmək vacibdir: hər saatda bir neçə qurtum, səhər yarım stəkan və yeməkdən əvvəl bir qədər su içmək tövsiyə olunur. Bu, xüsusilə gəzinti və ya hər hansı fiziki fəaliyyət ərəfəsində daha da vacibdir. Həkim suya orqanizmin düzgün işləməsinə kömək edən gündəlik "dərman" kimi yanaşmağı məsləhət görür.

# Alimlər piylənmə aleyhinə qeyri-adi üsul tapdılar



Ailə münasibətlərinin keyfiyyəti piylənmə riskinə birbaşa təsir göstərə bilər. Oxu.Az xəbər verir ki, UCLA Health ekspertlərinin bu mövzuda apardıqları araşdırma "Gut Microbes" jurnalında dərc olunub. Məlum olub ki, emosional dəstək və ailədəki xoş mühit bir sıra bioloji proseslərə, o cümlədən bədən kütləsinə təsir edir. Araşdırmaya yüzdən çox Los-Anceles sakini cəlb olunub. Tədqiqat zamanı onların bədən kütləsi indeksi, sosial-iqtisadi vəziyyəti, qidalanma xüsusiyyətləri və ailə daxilində aldığı emosional dəstək səviyyəsi qiymətləndirilib.

Nəticələrə əsasən, yüksək emosional dəstək alan evli şəxslərdə bədən kütləsi indeksi daha aşağı olub və qida asılılığına meyil zəif müşahidə edilib. Yemək gördükləri zaman onların beyin qabığında iştahanın tənzimlənməsi və impulsların idarə olunmasına cavabdeh sahələrin aktivləşdiyi məlum olub. Tənhalarda isə bu xüsusiyyətlər aşkar edilməyib. Bu nəticələr MRT müayinələri zamanı əldə olunub. Araşdırma həmçinin göstərib ki, evli iştirakçılarda "sevgi hormonu" kimi tanınan oksitosinin səviyyəsi daha yüksəkdir. Mütəxəssislərin fikrincə, məhz oksitosin zərərli qidaya meyli azaldır və bağırsaqlarda metabolizmi gücləndirir.



## Qəfil ürək ölümü riski yüksək olan insan qrupu müəyyən edildi

Danimarkalı alimlər müəyyən ediblər ki, şəkərli diabeti olan insanlarda qəfil ürək ölümünün riski əhəmiyyətli dərəcədə yüksəkdir və ölümlə nəticələnmə, xüsusilə, gənc yetkinlər üçün daha böyük təhlükə yaradır. Araşdırmanın nəticələri "European Heart Journal" jurnalında dərc olunub. Alimlər 2010-cu ildə Danimarkada baş vermiş 54 028 ölüm halını təhlil edərək onlardan 6 862-nin qəfil ürək ölümü olduğunu müəyyən ediblər. Daha sonra tədqiqatçılar ümumi ölüm hallarının hansı hissəsinin I və II tip diabeti olan insanlara aid olduğunu araşdırıblar.

Nəticələr göstərib ki, şəkərli diabeti olan insanlarda qəfil ürək ölümü xeyli daha çox baş verir: I tip diabetdə risk 3.7 dəfə, II tip diabetdə isə 6.5 dəfə yüksəkdir. 50 yaşdan aşağı şəxslər arasında bu xəstəliyə malik olanlarda risk diabeti olmayan həmyaşıdları ilə müqayisədə demək olar ki, yeddi dəfə yüksək olub. Müəlliflər vurğulayırlar ki, araşdırma müşahidə xarakterlidir, lakin əldə olunan məlumatlar problemin miqyasını açıq şəkildə göstərir. Riskin artması həm diabet üçün tipik olan ürək-damar fəsadları, həm də xüsusi amillərlə, məsələn, qan şəkərinin kəskin enməsi epizodları və ya ölümcül aritmiyalara meyli artıran avtonom neyropatiya ilə bağlı ola bilər.

## Bunları bilirsinizmi?

* Əgər siz 1 saat müddətində qulaqcıqla nəyəsə qulaq assanız, bu zaman qulağınızda bakteriayaların sayı 70% artmış olacaq.
* Dünya əhalisinin 50%-nin telefonla heç danışmadığını bilirdinizmi?
* Bir insandakı ümumi damar uzunluğu 150 min kilometrdir. Başqa cür desək, bu dünya ilə Günəş arasındakı məsafənin 150 milyon km-nə bərabərdir.
* Fənərbaxçanın basketbolçusu Kunter 1988-ci ildə Hilalspor ilə qarşılaşmada topladığı 153 xalla dünya rekordu qırıb. O, ilk yarıda topladığı 81 xalla adını tarixə yazdıra bilib.
* Kişiləri ildırım vurması ehtimalı qadınlara görə 6 qat daha çoxdur.
* Atakama səhrasına 400 ildən bəri yağış yağmır. Yağan yağış isə, havada buxarlandığında görə yerə gəlib çatmır.
* Bu günə qədər yaşamış ən ağır adam 635 kiloya sahib olan vaşingtonlu Jon Brover Minnochdur.
* Barmaq izləri kimi dil izləri də hər insan üçün unikal və təkrarolunmazdır.

## Yeni Zelandiyada kişinin udduğu bahalı "Faberje" kulonu mağazaya qaytarıldı



Yeni Zelandiya polisi altı gün əvvəl Oklenddə yerləşən zərgərlik mağazasında müştəri tərəfindən udulmuş yumurta formasındakı bahalı "Faberje" ("Faberge") kulonunu qaytarmağa müvəffəq olduqlarını bəyan edib. Oxu.Az-ın xəbərinə görə, bu barədə "Associated Press" nəşri məlumat verib. Hüquq-mühafizə orqanları əməkdaşları iddia edirlər ki, kulon tibbi müdaxilə olmadan şübhəlinin mədə-bağırsaq traktından təbii şəkildə çıxıb. Xatırladaq ki, adı açıqlanmayan 32 yaşlı kişi oğurluq barədə məlumat verildikdən qısa müddət sonra həbs edilmişdi. O vaxtdan bəri polis onu 24 saat nəzarət altında saxlayırdı.

Yumurta formasındakı "Faberje" kulonu "Səkkizayaqlı" filmindəki epizoddan ilhamlanaraq, məhdud sayda, cəmi 50 ədəd buraxılıb. Filmdə zərgərlik qaçaqmalçılığı əməliyyatında yumurta formasında saxta "Faberje" kulonunda istifadə edilir. Mağazanın veb-saytında bildirilir ki, "yumurta" qızıldan hazırlanıb, yaşıl emal ilə örtülüb və 183 brilyant və iki sapfir ilə bəzədilib. Yumurtanın içərisində gözləri qara brilyantdan olan 18 karatlıq qızıl səkkizayaqlı ilbiz fiquru var. Polis tərəfindən yayımlanan və dərc üçün elə də uyğun olmayan fotoşəkildə hətta kulonun üzərindəki qiymət kağızı da görünür: orada 33 000 Yeni Zelandiya dolları (32 000 manat) yazılıb.

## Hindistanda 59 yaşlı kişini timsah parçaladı

Hindistanın Maxaratşa ştatında 59 yaşlı Laksman Kalgi timsahın qurbanı olub. Oxu.Az xəbər verir ki, bu məlumatı "The Times of India" nəşri yayıb. L.Kalgi hər gün altı-yeddi dostu ilə birgə Dudxqanqa çayında çimirmiş. Sonuncu dəfə də ora dostları ilə gedib. Onlar birgə suya girsələr də, qəfildən Kalgini itiriblər. Üç saatdan sonra kişinin qalıqları görünüb. Onun ayaq pəncələrində timsah izləri olub. Ştatın meşə təsərrüfatı departamentindən bildiriblər ki, timsahlar çoxdan Dudxqanqa çayında məskunlaşıblar. Yerli sakinlər bundan xəbərdar olsalar da, çayda çimməyə davam edirlər. L.Kalgi ən təhlükəli mövsümdə suya girib. Hazırda timsahlar yumurta qoyduqları üçün özlərini çox aqressiv aparırlar.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emìl SALAMOĞLU

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Son dakìka" MMC-nin mətbəəsìndə çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksìyanın mövqeyì uyğun gəlməyə bìlər.

Lìsenzìya N: B 114
SAYI: 1.500